# POLİS HAQQINDA SƏNƏDLƏR TOPLUSU

# XI BÖLMƏ

# POLİSİN FƏALİYYƏTİ İLƏ BAĞLI OLAN TERMİNLƏRİN, SÖZ VƏ SÖZ BİRLƏŞMƏLƏRİNİN ANLAYIŞI VƏ YA TƏYİNATI, TERMİNOLOJİ VƏ YA İZAHLI LÜĞƏTİ, MAHİYYƏTİ VƏ YA MƏQSƏDİ

## Aa

**ANLAQSIZLIQ** - cinayət hüququnda şəxsin psixikasının vəziyyəti, yaxud kəmağıllığı nəticəsində öz hərəkətlərinin ölçüb-biçmək ictimai-təhlükəli əməl etdiyi zaman onları idarə etmək iqtidarında olmaması.

**APARTEİD** - (afrikaans dilində apartheid - ayrılıqda yaşama) - irqi ayrı-seçkiliyin və seqreqasiyanın ifrat forması; bu halda bir irqi qrupun digər qrup üzərində hökmranlığını müəyyən etmək, yaxud saxlamaq və ya müntəzəm istismar etmək məqsədilə ölkənin bütöv əhali qrupları irqi mənsubiyyətinə görə digər əhali qrupları ilə müqayisədə kəskin qeyri-bərabər vəziyyətə qoyulur, siyasi, mülki və sosial-iqtisadi hüquqlardan məhrum edilir, yaxud onların hüquqları mühüm dərəcədə məhdudlaşdırılır (hətta xüsusi ərazidə-rezervasiyalarda təcrid edilir).

**APATRİD** - (yunanca apatriş - vətəni olmayan) - hansısa bir dövlətdə vətəndaşlıq hüququ olmayan şəxs.

**APELLYASİYA** (lat. appellatio- müraciət) - məhkəmə hökmündən şikayətvermə formalarından bimri. A. ilk dəfə Fransada 1808-ci ildə, sonralar digər burcua dövlətlərinin qanunvericiliyində də tətbiqn edilmişdir. A. birinci instansiya məhkəməsinin hökmündən tərəflərin verdiyi şikayət əsasında işə ikinci instansiya məhkəməsində mahiyyət üzrə baxılması və yeni hökm çıxarılmasıdır.

**ATTESTASİYA** -(latınca attestatio - şəhadətnamə) - işçinin ixtisasının, məhsulun keyfiyyətinin, iş yerlərinin vəziyyətinin, təhsil alanların bilik səviyyəsinin müəyyən edilməsi; vəzifə attestasiyası - işçinin ixtisasının onun tutduğu vəzifəyə uyğun olmasını yoxlamaq üçün aparılır. A. mütəxəssislərdən daha səmərəli istifadə olunması, onların əməyinin səmərəliyinin və tapşırılmış iş üçün məsuliyyətinin artırılması üçün aparılır, kadrların seçilməsinin və tərbiyə edilməsinin daha da yaxşılaşdırılmasına, onların işgüzarlığının və ideya-siyasi səviyyəsinin yüksəldilməsinə kömək edir.

**AFFEKT** - (lat. affectus - ruhi həyəcan, hiss, ehtiras ) - insanın güclü və dərin ruhi həyəcan, parlaq zahiri təzahür, süurun zəifləməsi və öz hərəkətləri üzərində nəzarətin itirilməsi ilə səciyyələnən, qısamüddətli, kəskin ifadə edilmiş, sürətlə dəyişən vəziyyəti. İki növ A. fərqləndirilir: fizioloji A. və patoloji A. Fizioloji A. (qəzəb, qorxu) pisxikaya güclü təsirlə müşayiət olunsa da adamı öz hərəkətlərini dərk etmək və ona nəzarət etmək imkanından məhrum etmir. Cinayətin fizioloji A. (bax. Ruhi həyacan) vəziyyətində

edilməsi şəxsin cinayət məsuliyyətini istisna etmir, lakin müəyyən şəraitdə məsuliyyət yüngülləşdirə bilər. Patoloji A. şüurun dərindən pozulması və avtomatlaşmış, məqsədsiz və yaxud təhlükəli hərəkətlərlə (hücumla) nəticələnir. Məhkəmə-psixatriya ekspertizası şəxsin ictimai-təhlükəli əməli patoloji A. vəziyyətində törətməsini müəyyən edrsə, şəxs anlaqsızlıq vəziyyətində sayılır və məsuliyyətdən azad edilir.

**ASAYİŞ** (fars sözü) - rahatlıq, əmin-amanlıq, sakitlik

**ATƏŞ** (fars sözü) - od; odlu silahdan güllə atma

**AGENT** (lat. agens — hərəkət edən; ing. agent) —**1)** geniş mənada işgüzar tapşırıqları yerinə yetirən nümayəndə (belə funksiyanı həm fiziki, həm də hüquqi şəxslər yerinə yetirə bilərlər); müvəkkil edilmiş fiziki və ya hüquqi şəxs. AR mülki hüququnda agent müqaviləsinin tərəfi. AR Mülki Məcəlləsinin 790-cı maddəsinə uyğun olaraq agentin ümumi vəzifələri mülki qanunvericilikdən (Mülki Məcəllənin 778-ci maddəsindən) irəli gəlir; **2)** axtarış və ya kəşfiyyat xidmətinin əməkdaşı. A. müəyyən mükafatlandırılma əsasında qulluq edir.

**AXTARIŞ** —mühakimə icraatında həyata keçirilən istintaq hərəkətlərinin bir növü. A. cinayətin törədilməsi alətlərinin, cinayətkar yolla əldə edilmiş əşya və predmetlərin, iş üçün əhəmiyyəti olan digər əşyaların və sənədlərin aşkar edilib götürülməsi məqsədilə, habelə axtarışda olan şəxslərin, mülki iddia üzrə alına bilən, yaxud məhkəmənin qərarı ilə müsadirə edilə bilən əmlakın aşkar edilməsi üçün binaların, evlərin, mənzillərin, müəyyən ərazilərin, şəxsin bədəninin və geyiminin *(həmçinin bax: şəxsi müayinə)* məcburi qaydada yoxlanılmasından ibarətdir.

A. həmçinin ibtidai istintaqdan və ya məhkəmədən gizlənən təqsirləndirilən şəxslərin, hökmün icrasından boyun qaçıran və ya islaholunma yerlərindən qaçan məhkumların, itkin düşmüş şəxslərin yerlərinin müəyyən edilməsi üçün müstəntiqin, təhqiqat aparan şəxsin, məhkəmənin və həbs yerləri müdiriyyətinin, eləcə də Daxili İşlər Nazirliyinin müvafiq orqanlarının həyata keçirdikləri tədbirlərin məcmusundan ibarətdir.

A. müstəntiq və ya təhqiqat aparan şəxsin, həmçinin məhkəmənin qərarı əsasında aparıla bilər. A. hal şahidlərinin iştirakı ilə aparılmalıdır. A.-ın nəticəsi haqqında protokol tərtib edilir.

**AKT** *(lat. actus — hərəkət, actum — sənəd)* —**1)** xəta, hərəkət; **2)** rəsmi sənəd. Hüquqi a. dövlət orqanı, vəzifəli şəxs tərəfindən onların qanunla müəyyən edilmiş formada (qanun, fərman, qərar və i.a.) öz səlahiyyətləri daxilində verilir və məcburi qüvvəyə malik olur. Normativ aktlar, ekspertiza aktları, vətəndaşlıq vəziyyəti aktları kimi terminlər də müasir hüquqda istifadə olunur *(həmçinin bax: hüquqi akt).*

**ANONİM** (yun. anonymos — adsız, imzasız) — **1)** öz adını, yaxud təxəllüsünü məktubunda və ya əsərində gizli saxlamış müəllif; **2)** müəllifinin adı məlum olmayan, yaxud göstərilməyən əsər.

Senzuranın güclü təqib etdiyi dövrlərdə yazarların əksəriyyəti (mütərəqqi, demokratik fikirli ziyalılar) öz əsərlərini imzasız nəşr etdirmək məcburiyyətində qalmışdır. M.F. Axundov istibdad və cəhalət, fanatizm əleyhinə yazdığı "Kəmalüddövlə məktubları" fəlsəfi traktatını imzasız nəşr etdirməyə məcbur olmuşdur. Azərbaycanda rus çarizminin mürtəce siyasət yeritdiyi bir şəraitdə "Molla Nəsrəddin" jurnalında nəşr edilən məqalələrin böyük əksəriyyəti imzasız, yaxud qondarma təxəllüslərlə dərc edilmişdir.

**ADMİNİSTRASİYA** - (latınca administratio - idarəetmə) - 1) geniş mənada idarəetmə üzrə dövlətin bütün fəaliyyəti. Ümumi dövlət administrasiyasını dövlətin icra

və sərəncamverici orqanları təşkil edirlər; 2) RF-də diyar, vilayət, muxtar vilayət, muxtar diyar, rayon, şəhər səviyyəsində icra hakimiyyəti orqanlarının ən geniş yayılmış rəsmi adı; 3) Azərbaycanda, ABŞ-da və digər prezidentli respublikalarda dövlət başçısının yanında kabinetin adı.

**AVARALIQLA MƏŞĞUL OLAN DEDİKDƏ** - müəyyən yaşayış yeri və yaşamağa vəsaiti olmayan hər hansı ictimai faydalı işlə və ya peşə fəaliyyəti ilə məşğul olmayan (qanun-vericiliklə müəyyən edilmiş qaydada işsiz statusu almış şəxslər istisna olmaqla), mütə-madi olaraq xırda oğurluq və ya dilənçilik yolu ilə dolanan şəxslər başa düşülür.

**AİLƏ-MƏİŞƏT ZƏMİNİNDƏ TÖRƏDİLƏN CİNAYƏTLƏR** - məişət sahəsində yaranan, münaqişə formasında mövcud olan, insan-ların həyat və sağlamlığına, şərəf və ləya-qətinə, mülkiyyətinə və ictimai qaydaya qəsd edən ictimai təhlükəli əməllərin cəmidir.

# Bb

**BANDİT** — sabit silahlı qrupdan ibarət olan bandanın üzvü. B., üzvü olduğu cinayətkar birlikdə birgə iştirakçı kimi, həm təşkilatçı və icraçı, həm də bandanın başçısı rolunu ifa edə bilər.

**BANDİTİZM** — ictimai təhlükəsizlik və ictimai qayda əleyhinə olan cinayət; AR CM-in 217-ci maddəsində (XXV fəsil) nəzərdə tutulmuşdur. B. təşkilatlara və ya ayrı-ayrı şəxslərə basqın etmək məqsədilə sabit silahlı qruplar (bandalar) təşkil etməkdən, belə qruplara (bandalara) rəhbərlik etməkdən; sabit silahlı qruplarda (bandalarda) və ya onların törətdikləri basqınlarda iştirak etməkdən ibarətdir.

AR Ali Məhkəməsi Plenumunun 7 iyul 1996-cı il tarixli qərarının 6-cı bəndinə uyğun olaraq banditizm cinayəti vətəndaşlara və ya təşkilatlara basqın etmək məqsədilə sabit silahlı qrup (banda) təşkil edildiyi andan, bandanın planlaşdırdığı cinayətin törədilib-törədilməməsindən asılı olmayaraq başa çatmış hesab olunur. Deməli, b. kəsik tərkibli cinayətdir. Bandada iştirak etmə də başa çatmış cinayət hesab olunur.

**BRAKONYERLİK** -qanunvericilik və digər normativ aktlarla müəyyən edilən xüsusi qaydaların pozulması ilə qanunsuz ov.

**BÖHTAN** (ərəb sözü) - şərə salma, şərləmə; yalandan bir işi başqasının boynuna qoyma

# Cc

**CANİ** (ərəb sözü) - cinayət edən, qatil.

**CASUS** (ərəb sözü) - gizli kəşfiyyatçı; xəfiyyə, agent.

**CƏDVƏL** (ərəb sözü) - siyahı; cizgili, xanalı qrafik.

**CƏRİMƏ** (fras sözü) - pulla cəzalandırma.

**CİNAYƏT** (ərəb sözü) - qanunla icazə verilməyən təhlükəli hərəkət; qanunazidd əməl.

**CASUS** (lat. agens, agentis — fəaliyyət göstərən) —**1)** axtarış və ya kəşfiyyat xidmətinin əməkdaşı; **2)** işgüzar tapşırıqları yerinə yetirən idarənin və i.a. nümayəndəsi (agent), yaxud buna müvəkkil edilmiş şəxs.

# Dd

**DAXİLİ İŞLƏR ORQANI** - qanunvericiliklə müəyyən edilmiş qaydada dövlətin daxili işlər sahəsində məqsəd və funksiyalarını, habelə hüquq-mühafizə fəaliyyətini həyata keçirmək üçün yaradılmış və dövlət büdcəsindən maliyyələşdirilən daxili işlər orqanları əməkdaşlarından ibarət olan hüquq-mühafizə orqanıdır.

**DAXİLİ İŞLƏR ORQANLARININ İNZİBATİ FƏALİYYƏTİ** - daxili işlər orqanlarının daxili işlər sahəsində qanunvericiliklə müəyyən edilmiş səlahiyyətləri çərçivəsində dövlətin vəzifə və funksiyalarının bilavasitə, gündəlik və praktiki olaraq həyata keçirilməsindən ibarət olan məqsədyönlü, təşkiledici, icraedici- sərəncamverici və qanunqüvvəli təşkilati-hüquqi fəaliyyət formasıdır.

**DÖVLƏT ORQANI** - cəmiyyətə dövlət rəhbərliyinin konkret sahəsində dövlət qarşısında duran vəzifələrin həyata keçirilməsi üçün zəruri vasitələrə səlahiyyəti müəyyən edilən hakimiyyət səlahiyyətləri verilmiş dövlət mexanizminin mütəşəkkil hissəsidir. Dövlət orqanı bir vəzifəli şəxs və ya məlum tərzdə mütəşəkkil vəzifəli şəxslər qrupu ola bilər.

**DİSPOZİSİYA** - hüquq subyektinin hüquqi əhəmiyyətli xarakterə malik olan davranışının məzmununu açıqlayan hüquq normasının struktur elementi.

**DAKTİLOSKOPİYA** *(daktilo... + skoreo - baxıram)* — şəxsin kriminalistik eyniləşdirilməsi, cinayətlərin qeydiyyatı və cinayətkarların axtarışı məqsədilə əl-barmaq izlərinin quruluşunu öyrənən kriminalistika elminin bölməsi. D. hadisə yerində aşkar edilən əl-barmaq izlərinə görə şəxsin kriminalistik eyniləşdirilməsinə, daktiloskopik qeydiyyat vasitəsilə cinayətkarın əvvəllər məhkum olunub-olunmamasını müəyyən etməyə, naməlum meyitin eyniləşdirilməsinə, xəbərsiz itkin düşmüş şəxslərin axtarılmasına, bir şəxsin bir neçə cinayət törətməsi və ya bir cinayətin bir neçə şəxs tərəfindən törədilməsi faktını müəyyən etməyə imkan verir.

**DE-YURE** - (lat. de jure - hərfən hüquqa görə) - beynəlxalq hüquqda dövləti, yaxud hökuməti, tam şəti və rəsmi tanıma. Bax həmçinin De-fakto.

**DE-FAKTO**- lat. de facto, hərfən - əslində, faktik) - beynəlxalq hüquqda dövləti, yaxud hökuməti tanıma formalarından biri; rəsmidir, lakin qəti tanıma deyil. De-f. tanıma müəyyən hüquqi nəticələrin əmələ gəlməsini nəzərdə tutsa da, müvəqqəti xarakter daşıyır və de-yure tanımaya bir növ keiddir.

**DƏRKƏNAR** - 1) hər hansı məsələnin kollegial orqanın, məclisin iclasında (qurultayda, konfransda, sessiyada) müzakirəsi nəticəsində qəbul edilmiş qərar. 2) Vəzifəli şəxsin sənədin üzərində etdiyi qeyd - həmin şəxsin qəbul etdiyi qərardır.

**DUBLİKAT** - (lat.duplicatus - qoşalaşmış; hər hansı yazılı sənədin ikinci və daha sonrakı nüsxəsi; surətdən fərqli olaraq D. sənədin əsli ilə bərabər hüquqi qüvvəyə malikdir. D. o halda hazırlanır ki, sənədin əslini yalnız tərəflərdən biri ala bilmiş olsun. Bəzən sənədin əsli itirildikdə də D. verilir. D. sənədin əsli ilə bərabər hüquqi qüvvəyə malikdir. Daha aydın ifadə edilərsə, d. sənədin surəti deyil, onun əslidir. Verilən nüsxədə "dublikat" sözü qeyd edilir. "Dublikat" sözü sənədin ilkinin itirildiyini göstərir

**DƏFTƏRXANA** (fars sözü) - idarədə məktublaşma və səndəlşdirmə işləri icra edilən yer

**DƏLİL** (ərəb sözü) - sübut, isbat etmək üçün əsas

**DE-FAKTO** (lat. de facto) - faktiki, faktiki olaraq tanıma. D.-f. dövləti və ya hökuməti tanımanın beynəlxalq formalarından biridir. D.-f. rəsmi, lakin tam olmayan tanıma

deməkdir. Adətən müvəqqəti səciyyə daşıyır və de-yure tanımadan əvvəlki keçid mərhələsidir (bax: dövləti tanıma).

**DELİNKVENT** (lat. delinquens - əməl törədən) - hüququ pozan şəxs; hüquqda (xüsusilə də kriminologiyada) sosial cəhətdən yayınma davranışlı şəxsləri (cinayətkarları və başqalarını) işarə etmək üçün istifadə olunan termin.

**DETERMİNANTLAR** (kriminologiyada) - hadisələr doruran, onları şərtləndirən konkret amillər (hallar).

**DETERMİNASİYA** (kriminologiyada) - obyektiv surətdə mövcud olan şeylərin və proseslərin şərtliliyi. Hər hansı hadisə öz-özünə, ətraf gerçəklikdən kənarda yaranmır, əksinə bu, real gerçəkliklə əlaqədar olmaqla, konkret amillərdən və hallardan dorur.

**DETERMİNİZM** (kriminologiyada) - bütün hadisə və proseslərin qarşılıqlı əlaqəsinin və səbəblərinin obyektiv qanunauyrunluqları haqqında elm. Bu elmin nailiyyətlərindən kriminologiyada geniş istifadə olunur.

**DE-YURE** (lat. de yure - hüquqi) - beynəlxalq hüquqda dövləti və ya hökuməti tam şəkildə rəsmən tanıma.

**DİFFERENSİASİYA** (fr. differentiation - müxtəliflik) - kriminalistikada və məhkəmə ekspertizasında bir qrupa və ya müxtəlif qruplara (cinslərə) məxsus olan obyektlər arasında müxtəliflik əlamətlərinin aşkar edilməsi və qiymətləndirilməsi.

**DİSLOKASİYA** (hərbdə) - dinc şəraitdə quru qoşunlarının hissə, birləşmə və hərbi idarələrinin ölkənin müəyyən ərazisində (yaayış məntəqələri, xüsusi hərbi şəhərcik və düşərgələrdə) yerləşdirilməsi; HHQ hissə və birləşmələrinin təyyarə meydanlarında, HDD gəmilərinin limanlarında və hərbi-dəniz bazalarında dayanması.

**DİSPOZİSİYA** (lat. dispositio - bölüşdürmə) - müəyyən qeyd-şərti, qadaranı özündə ehtiva edən hüquq normasının bir hissəsi. Məsələn, qanunun cinayət əməlinin, müqavilənin və i.a. əsas əlamətlərini ifadə edən hissəsi.

**DİSTANSİYA** (lat. distantia - məsafə) - 1) hərbdə - ardıcıl düzülmüş hərbi sıra, rəsmi keçid, yaxud döyüş nizamlarında hərbi qulluqçular, bölmə, maşın, silah və i.a. arasında, həmçinin uçuşda olan təyyarələr arasında məsafə; 2) dəmir yolunda - müvafiq yol idarələrinə tabe olan yol təsərrüfatı vahidi. Dəmir yolu nəqliyyatında yol, siqnallaşma və rabitə, bina, qurru və i.a. d.-lar vardır.

**DOZA** (yun. dosis - porsiya; ing. dose) - toksikologiyada farmakoloji və toksikoloji qüvvəyə malik olan dərman maddələrinin orqanizmə yeridilməsinin müəyyən edilmiş miqdarı. Birdəfəlik, birgünlük, kiçik, orta və yüksək müalicəvi, zəhərləyici və öldürücü dozalar vardır.

**DEDEKTİV** - (ingiliscə detective, latınca detektio - açılma) - 1) cinayətlərin araşdırılması üzrə mütəxəssis; 2) axtarış polisi agenti, xəfiyyə.

**DAXİLİ İŞLƏR ORQANLARININ FƏALİYYƏTİNDƏ QANUNÇULUQ** - AR qanunlarının və qanun qüvvəli aktlarının vahid tərzdə icrası, tətbiqi, eləcə də daxili işlər orqanları əməkdaşlarının hərəkətlərinin inzibati-hüquqi, cinayət və cinayət-prosessual normalara tam müvafiqliyi.

**DAXİLİ İŞLƏR ORQANLARININ İNZİBATİ FƏALİYYƏTİ** - ictimai qaydanın, ictimai təhlükəsizliyin təmin edilməsinə, eləcə də hüquqpozmalarla mübarizəyə yönələn, inzibati hüquq normaları ilə tənzimlənən icra-sərəncamverici fəaliyyət.

**DİO-NUN PROFİLAKTİK FƏALİYYƏTİ** - hüquqpozmaların xəbərdar edilməsi

və qarşısının alınmasına yönəldilmiş tədbirlər sistemidir.

# Ee

**EYNİLƏŞDİRMƏ** *(kriminalistikada)* — istintaqı aparılan hadisə ilə əlaqədar olaraq şəxsin və ya predmetin müəyyən edilməsi məqsədi ilə həmin obyektlərin maddi əksi üzrə müqayisə edilməsi prosesi. Kriminalistik eyniləşdirmə dörd mərhələdən keçir: 1) müqayisəli tədqiqata hazırlıq, 2) obyektlərin ayrılıqda tədqiqatı: 3) müqayisəli tədqiqat: 4) müqayisəli tədqiqatın nəticələrinin qiymətləndirilməsi.

**EKSPEDİSİYA** (lat. expeditio - qaydaya salma) - mülki hüquqda müqavilə növü, bu müqaviləyə görə bir tərəf (ekspeditor) digər tərəfin (müştərinin) hesabına və onun adından, yaxud öz adından müştəriyə məxsus olan yükləri göndərməyi, yaxud onun ünvanına daxil olmuş yükü almağı, müştəri isə bui ş üçün müəyyən haqq verməyi öhdəsinə götürür. E.yüklərin göndərilməsi və ya alınması ilə də yanaşı bir sıra faktik (qablaşdırma, markalama, yükləmə, boşaltma və s.) və hüquqi (nəql. sənədlərin rəsmiləşdirmə, hesablaşma əməliyyatları, gömrük əməliyyatları və s.) xarakterli əməliyyatlar aparır. Aşağıdakı təşk.lar ekspeditor kimi çıxış edir: nəql, avtomobil, d.y., daxili su nəql.-ı ekspedisiya agentlikləri və kontorları, dəniz limanları. E. xidməti göstərir (məs. poçt göndərmələrinin çatdırılması).

**ETİBARNAMƏ** - bir şəxsin (etibar edənin) adından üçüncü şəxslər qarşısında təmsil olunmaq üçün digər şəxsə etibar edilənə verilən yazılı səlahiyyət. E. etibar edilənin səlahiyyətinin məzmununu və müddətini təsbit edən birtərəfli əqddir; etibar edilənin E.-ə uyğun hərəkətləri, bilavasitə etibar edən üçün hüquq və vəzifələr əmələ gətirir.

**EKSPERT** *(lat. expertus — təcrübəli)* — elm, texnika, incəsənət və digər peşə sahəsində xüsusi biliklərdən istifadə etməklə rəy verməyə qadir olan, cinayət prosesində marağı olmayan, öz razılığı əsasında materialların tədqiqinin aparılması üçün cinayət prosesini həyata keçirən orqan və ya onun tələbi ilə ekspert müəssisəsinin rəhbərliyi tərəfindən təyin edilmiş şəxs (AR CPM-in 97.1-ci maddəsi). E. cinayət prosesi iştirakçılarının təklif etdikləri şəxslər sırasından təyin edilə və ya müdafiə tərəfindən dəvət oluna bilər. E. qarşısına qoyulmuş suallar üzrə rəy vermək üçün kifayət qədər elm, texnika, incəsənət və digər peşə sahələrinə aid xüsusi biliklərə malik olmalıdır. Şəxs cinayət prosesinin hüquqi məsələləri üzrə e. qismində təyin oluna və ya digər formada cəlb edilə bilməz.

**EVAKUASİYA** *(lat. evacuare — boşaltmaq)* —**1)** yaralıların, əsirlərin, əhalinin, habelə qənimət və maddi vəsaitlərin hərbi əməliyyat meydanından arxaya köçürülməsi; **2)** qoşunların əvvəlcə tutduqları rayonlardan çıxarılması; **3)** düşmənin hücumu, yaxud təbii fəlakət təhlükəsi altında olan ərazidən əhalinin, müxtəlif obyektlərin, habelə qiymətli sərvətlərin köçürülməsi.

**EVTANAZİYA** *(yun. eu — yaxşı və thanatos — ölüm)* — xəstənin xahişi ilə onun ölümünü hər hansı vasitə, yaxud hərəkətlə tezləşdirmə və ya onun həyatının davam etməsinə kömək edən süni tədbirləri dayandırma. AR CM-in 135-ci maddəsində nəzərdə tutulan, həyat və sağlamlıq əleyhinə olan cinayətlərdən biridir.

**EKSHUMASİYA** (eks... +lat. humus — torpaq) — meyitin basdırıldığı yerdən (qəbirdən) çıxarılması. Cinayət-prosessual qanunvericiliyə görə e. müstəntiqin qərarı əsasında aparılır. Qərarda e.-nın məqsədi göstərilir. Meyitin müayinəsi, o cümlədən təkrar müayi-

nəsi, ölənin (öldürülənin) şəxsiyyətinin müəyyən edilməsi, həmçinin ekspertiza aparılması üçün həyata keçirilən e. zamanı hal şahidləri, məhkəmə-tibb eksperti, zəruri hallarda isə digər mütəxəssislər iştirak edirlər.

**EPİZOOTİYA** (yun.epizoon - heyvan) heyvanlar (həm ev heyvanları, həm də vəhşi heyvanlar) arasında geniş yayılmış və təsərrüfatı (rayonu, ölkəni) əhatə edə bilən yoluxucu (infeksion) xəstəlikdir. E. ölkədə fövqəladə vəziyyət elan olunması əsaslarından biridir.

**EHTİMAL** (ərəb sözü) - zənn, güman; fərziyyə, versiya

**EPİDEMİYA** (yun. epidemia — yoluxucu xəstəlik) — müəyyən əhali qrupu arasında və ya müəyyən ərazidə sürətlə və fasiləsiz olaraq yayılan infeksion xəstəlik. E.-nın ən təhlükəli forması pandemiyadır. E.-nın bu forması dünya ərazisinin əksər hissəsini əhatə (məsələn, qripp) edir. E. ölkədə fövqəladə vəziyyət elan olunmasının əsaslarından biridir.

# Əə

**ƏDALƏT** (ərəb sözü) - insaf, mürüvvət

**ƏDLİYYƏ** -1. (ərəb sözü) - məhkəmə ilə bağlı işlərə baxan dövlət idarəsi; 2.- (latınca yustitia - ədalət) - ədalət mühakiməsinin həyata keçirilməsi üzrə bütün məhkəmə təsisatlarının, onların fəaliyyətinin, eləcə də məhkəmə idarəsinin məcmusunu ifadə edən termin.

**ƏFV** (ərəb sözü) - bağışlama, təqsir və günahdan keçmə

**ƏYYAŞ** (ərəb sözü) - spirtli içki düşkünü; alkoqolik

**ƏMƏLİYYAT ŞƏRAİTİ** - hüquqpozmaların miqdarı və xarakteri, eləcə də bu və ya digər daxili işlər orqanının, polis inspektorunun öz vəzifələrini yerinə yetirdiyi şəraitlə şərtlənən xidmət sahəsində ictimai qaydanın və cinayətkarlığın faktiki vəziyyəti.

# Ff

**FAHİŞƏ** (ərəb sözü) - əxlaqsız qadın.

**FAHİŞƏLİK** - (latınca prostitutio - ləkələmə, rüsvay edilmə) - öz bədənini satma (əsasən qadınlar tərəfindən); mükafat müqabilində qabaqcadan razılaşmaqla müx-təlif şəxslərlə mütəmadi olaraq cinsi əlaqəyə girmə başa düşülür.

**FEMİDA** *(yun. themis — themidos)* — Qədim yunan mifologiyasında ədalət mühakiməsi ilahəsi. F. Zevsin arvadı idi. Əvvəllər adət hüququnun, davranış normalarının, sonralar isə ədalət mühakiməsinin təcəssümü olan f. gözübağlı (qərəzsizlik rəmzi kimi) və əlində tərəzi tutmuş vəziyyətdə təsvir olunur. F.-nın məcazi mənası haqq-ədalət divanı deməkdir.

**FƏALİYYƏT** (ərəb sözü) - işgörmə, fəallıq.

**FƏRARİ** (ərəb sözü) - qaçqın (əsgər, dustaq və s. haqqında).

**FƏRMAN** (fars sözü) - əmr, hökm, göstəriş.

**FƏRZİYYƏ** (ərəb sözü) - ehtimal olunan, versiya; - istintaq və məhkəmə fəaliyyətində müstəntiqin və yaxud məhkəmənin işi düzgün həll etmək üçün əhəmiyyəti olan hadisə və faktların mövcud olub-olmaması haqqında mülahizələri. Hipotez növlərindən biridir.

**FONOSKOPİYA** *(kriminalistikada)* — səslərin izlərini öyrənən xüsusi tədqiqatlar nö-

vü. İnsan səsinin f.-sı danışanın sosial xarakteristikasını (təhsilini, peşəsini, mədəni səviyyəsini); emosional vəziyyətini (sakitliyini, çılğınlığını, narahatlığını); şifahi nitqin formalaşdığı ərazini (şivələri, dialektləri); fiziki (bioloji) xarakteristikanı (cinsi, yaşı, boyu); psixofizioloji xüsusiyyətləri (müxtəlif xəstəliklər zamanı normalardan yayınmanı) və nitq etmə qabiliyyətini (qiraəti, deklamasiyanı, natiqliyi) müəyyən etməyə imkan verir. F. tədqiqatları şəxsiyyətin eyniləşdirilməsinə kömək edir.

**FOTOTEXNİKİ EKSPERTİZA** — kriminalistik ekspertizanın bir növü; iş üçün əhəmiyyəti olan halların müəyyən edilməsindən ötrü fotoçəkilişləri (kinofilmləri), onların hazırlanmasının texniki vasitələrini və fotokinomaterialları tədqiq edir.

**FÖVQƏLADƏ** (ərəb sözü) - adətən xaric, adi olmayan

# Hh

**HADİSƏ** - (ərəb sözü) - ictimai dəyəri olan əhvalat; qeyri-adi bir iş və hərəkət;hüquqi fakt növlərindən biri; qanunda hüquq münasibətlərinin əmələ gəlməsi, dəyişməsi və ya xitamı H. ilə əlaqədəndirilir. Qanunun hüquq münasibətinin yaranmasını əlaqələndirdiyi hüquqi fakt növlərindən biri. Hadisələrə təbii, insanların iradəsindən kənar baş verən təbiət hadisələri (sel, zəlzələ, doğum, ölüm və i.) aiddir. Söhbət qeyri-iradəvi xarakterə malik hadisələr haqqında gedirsə, onu doğuran səbəb deyil, konkret hüquq münasibətlərinə hadisənin təsir prosesi nəzərdə tutulur.

**HADİSƏ YERİNİN MÜAYİNƏSİ** - cinayət prosesində istintaq hərəkəti; cinayət edilmiş yerin, yaxud izlər aşkar edilmiş yerin bilavasitə öyrənilməsindən ibarətdir: H.y.m. cinayət izlərini və digər maddi sübutları aşkar etmək,hadisə şaritini və iş üçün əhəmiyyəti olan digər halları aydınlaşdırmaq məqsədilə müstəntiq, təhqiqat aparan şəxs, məhkəmə tərəfindən aparılır.

**HAKER** - (ingiliscə hacker) - informatika sahəsində müxtəlif növ qanunsuz hərəkətlər törədən şəxs: yad kompyuter şəbəkəsinə icazəsiz daxil olma və onlardan ifnormasiya əldə etmə, proqram məhsullarından müdafiənin qanunsuz çıxarılması və onların köçürülməsi, kompyuter "viruslar"ının yaradılması və yayılması və i.

**HÜQUQ** -(ərəb sözü) - insanlar arasında münasibətləri nizama salan qanunlar toplusu; ixtiyar, imkan, azadlıq; haqq sözünün cəmi.Dövlət tərəfindən qorunan ümumməcburi sosial normalar sistemi; müasir elmdə bütün cəmiyyət miqyasında ictimai münasibətlərin hüquqi tənzimlənməsini təmin edən dövlət məcburiyyət gücü ilə mühafizə edilən ümumməcburi sosial normalar sistemi.

**HÜQUQİ AKT** - dövlət orqanı tərəfindən verilən və ümumnormativ və ya fərdi göstərişlərdən ibarət olan sənəd.

**HÜQUQ QAYDASI** - ictimai qaydanın əsas tərkib hissələrindən biri; ictimai həyatın müxtəlif sahələrini nizamlayan və öz aralarında xarakterinə və adamların davranışına təsir vasitəsinə görə (adət, əxlaq norması, ictimai təşki.-ların qaydaları və s.) fərqlənən müxtəlif növ sosial normaların həyata keçirilməsi nəticəsində əmələ gəlir.

**HÜQUQ NORMASI** - ayrı-ayrı şəxsərin, orqanların və təşkilatların qarşuluqlu münasibətlərini nizamlayan qayda.

**HÖKUMƏT** - dövlətin ali kollegial icra orqanı. Müxtəlif ölkələrdə hökumət müxtəlif adlara malik ola bilər: Nazirlər Şurası (Fransa, İtaliya, Polşa), Nazirlər Kabineti (Bö-

yük Britaniya, Azərbaycan, Türkiyə, Öhbəkistan), Dövlət Şurası (ÇXR) və i. Hökumət partiyasız, birpartiyalı və koalision ola bilər.

**HÜQUQPOZMA** - hansısa hüquq normasını pozan istənilən əməli ifadə edən anlayış növüdür. Hüquqpozmalar aşağıdakılara bölünür: mülki (şəxsiyyətə, vətəndaşın və ya təşkilatın əmlakına zərər vurulması), inzibati (məsələn, yol hərəkəti qaydalarının pozulması), intizam xətaları (xidməti fəaliyyətlə bağlı-işburaxma) və i. ən təhlükəli hüquqpozma növü cinayətdir. Hüquqpozmalara görə qanunlara müvafiq olaraq, mülki, inzibati, intizam və cinayət məsuliyyəti nəzərdə tutulur.

**HÜQUQ MÜNASİBƏTİ** - iştirakçıları subyektiv hüquq və vəzifələrin daşıyıcıları olan, hüquq normaları ilə tənzimlənən ictimai münasibət.

**HÜQUQ-MÜHAFİZƏ ORQANLARI** - əsas funksiyası hüquq-mühafizə fəaliyyəti, qanunçuluğun və asayişin qorunması, insan hüquq və azadlıqlarının müdafiəsi, cinayətkarlıqla mübarizə olan dövlət orqanları.

**HÜQUQ-MÜHAFİZƏ FƏALİYYƏTİ** - hüquq qaydalarının təmin edilməsi məqsədi ilə xüsusi səlahiyyətli orqanlar tərəfindən qanunlara dəqiq və dönmədən əməl etməklə, icrası məcburi olan hüquqi təsir tədbirlərinin tətbiq edilmə- si yolu ilə həyata keçirilən dövlət fəaliyyətidir.

**HÜQUQ DÜŞÜNCƏSİ** - dövlət və hüquq nəzəriyyəsində, kriminologiyada lazımi hüquq qaydası verilməklə, hüquqi əhəmiyyətli dəyərlərlə, hüquqi dərketmə ilə şərtlənən və hüquqi əhəmiyyətli hadisələrin əks edilməsi ilə bağlı olan, ictimai sfera, qrup və fərdi düşüncəni bildirən kateqoriya.

**HÜQUQ QABİLİYYƏTİ** - fiziki şəxsin verilmiş hər hansı bir ölkənin hüququ ilə yol verilən mülki hüquq və vəzifələrin daşıyıcısı olmaq qabiliyyəti.

**HAMİ** (ərəb sözü) - himayə edən, qəyyum

**HÜQUQ NORMALARININ ŞƏRHİ** - qanunvericinin hüquq normasında ifadə etdiyi ümumməcburi iradənin məna və məzmununun dövlət orqanları, müxtəlif təşkilatlar və ayrı-ayrı vətəndaşlar tərəfindən aydınlaşdırılmasına və izahına yönələn fəaliyyəti.

**HÜQUQ SİSTEMİ** - cəmiyyətdə təyinatına görə hüquq sahələri və institutları adlanan müəyyən hissələrdə vahid daxili razılaşdırılmış normalara bölünmədən ibarət olan milli hüququn quruluşudur. Hüquq sahələri hüquq institutlarına bölünür. Məsələn, mülki hüquq kimi hüquq sahəsi mülkiyyət hüququ, öhdəlik hüququ, müəllif hüququ, vərəsəlik hüququ və i. institutlara bölünür.

**HİPOTEZ** - (yun. hypo thesis - əsas, güman) - hüquq normasının hüqui, struktur hissəsi.

# Xx

**XÜSUSİ İCAZƏ SİSTEMİ** - ictimai təhlü-kəsizliyin təmin edilməsi sahəsində daxili iş-lər orqanlarının fəaliyyətinin əsas istiqamət-lərindən biri olaraq xidməti və mülki silahın, döyüş sursatının, müxtəlif növ möhürlərin və ştampların hazırlanmasına ,özəl mühafizə fəaliyyətinə xüsusi razılığın (lisenziyanın) verilməsi və onlara nəzarət edilməsi üzrə həyata keçirilən təd-birlərin məcmusudur.

**XAŞXAŞ** (ərəb sözü) - bitki növü; narkotik maddə.

**XTA** (ərəb sözü) - səhv, yanlış; qəbahət, günah.

# İi

**İXTİSAS** (ərəb sözü) - sənət, peşə.

**İBTİDAİ** (ərəb sözü) - ən əvvəl olan, başlanğıca aid; ilk, başlanğıc.

**İCAZƏ** (ərəb sözü) - izn, rüsxət.

**İCLAS** (ərəb sözü) - toplantı, oturma.

**İDARƏ** (ərəb sözü) - rəhbərlik etmə, ictimai və ya dövlət işlərinə rəhbərlik edən orqan; kontor; üsul, quruluş.

**İĞTİŞAŞ** (ərəb sözü) - qarışıqlıq, çaxnaşma, həyəcan.

**İMZA** (ərəb sözü) - qol; qol çəkmə.

**İZAHAT** (ərəb sözü) - izah sözünün cəmi; ətraflı şərh.

**İNZİBATİ YURİSDİKSİYA** - dövlət idarə orqanlarının və vəzifəli şəxslərin fərdi inzibati işlərin həll edilməsi və müvafiq hüquqi sanksiyaların inzibati qaydada (məhkəməyə müraciət etmədən) tətbiq edilməsi üzrə fəaliyyəti; bu fəaliyyət qanunvericilik aktları ilə müəyyən edilir.

**İDENTİFİKASİYA** (lat. identificare — eyniləşdirmə) —obyektlərin eyniliyini qəbul etmə, tanıma (həmçinin bax: eyniləşdirmə).

**İNTERPOL** *(fr. interpol —beynəlxalq cinayət; polis idarəsi —qısaldılmış şəkildə KRO)* - Qərbi Avropa ölkələri tərəfindən 1923-cü ildə Vyanada yaradılmış idarə. İ. beynəlxalq cinayət polisi (kriminal polis) komissiyası kimi yaradılmışdır. Qüvvədə olan nizamnaməsi 1956-cı ildə qəbul edilmişdir. İ.-un üzvü olan ölkələrdə onun milli mərkəzi buroları yaradılır.

**İCTİMAİ** (ərəb sözü) - cəmiyyətə mənsub olan, xalqla əlaqədar olan

**İCTİMAİ TƏHLÜKƏSİZLİK** - insanların həyat və sağlamlığını mühafizə etmək, ətrafdakılar üçün yüksək təhlükə ilə bağlı olan, vəzifəli şəxslərin və ya vətəndaşların fəaliyyəti nəticəsində yarana bilən dağıntılara və ya binaların, tikililərin zədələnməsinə və ya mənfi nəticələrin başlanmasına yol verilməməsi məqsədilə dövlət tərəfindən müəyyən edilən xüsusi təşkilati-texniki qaydaların icrasına və onlara ciddi əməl edilməsinə əsaslanan münasibətlər sistemi; - insanların hü-quq və azadlıqlarının, qanuni mənafe-lərinin, mülkiyyətinin, cəmiyyətin və dövlətin davamlı inkişafını təmin edən maraqların mühafizə olunma vəziyyə-tidir.

**İCTİMAİ YER** - hüquqşünaslar üç qrup ictimai yerləri fərqləndirirlər: daimi, dövri(-vaxtaşırı) və epizodik(təsadüfi, birdəfəlik) istifadə yerləri. Daimi istifadə ictimai yerləri - küçələr, meydançalar, xiyabanlar, bulvarlardır; yaşayış məntəqələrində - bütün sutka boyu işləyən müəssisələr, vağzallar, yəni girişi istənilən vaxt açıq olan ictimai yerlər. Dövri istifadə ictimai yerlərinə müəyyən edilmiş iş saatlarında əhaliyə xidmət üçün nəzərdə tutulan təsisatların, müəssisələrin və təşkilatların yerləşdiyi yer və digər obyektlər aiddir: şəhər nəqliyyatı, sərnişin qatarları və gəmiləri, ticarət və ictimai iaşə, məişət xidməti müəssisələri, bazarlar, tamaşa müəssisələri, idman qurğuları, çimərliklər və i. Bu obyektlər müştərilər üçün bağlı olan vaxtı, yəni orada adam olmadıqda, onlara ictimai yer kimi baxmaq olmaz. Birdəfəlik istifadə ictimai yerlərinə adamların ünsiyyəti müvəqqəti, birdəfəlik, epizodik xarakter daşıyan yerlər aiddir. Məsələn, çəmənlik, meşə, şəhərətrafına kollektiv gedişlərin keçirilməsi zamanı çöl hissəsi və ya bayram günlərində kütləvi gəzintilər yeri. Bu yerlər yalnız orada adamlar olan zaman ictimai yerlərə çevrilir.

**İCTİMAİ QAYDA** - ona həm geniş, həm də dar mənada baxıla bilər. Geniş mənada

- bütünlüklə ona xas olan iqtisadi və ictimai münasibətlərin xüsusiyyətləri ilə ictimai quruluş kimi. Bununla bərabər, ictimai qayda terminin dar mənada da yanaşmaq olar. Dar mənada - xüsusi, hüquqi əhəmiyyətlidir. Belə mənada ictimai qayda -ictimai yerlərdə insanların ünsiyyəti prosesində yaranan və sosial normalarla tənzimlənən ictimai münasibətləri ifadə edən sosial hadisədir. İctimai qaydanın belə hüquqi mənası barədə bir çox normativ aktlarda danışılır.

**İNTİZAM** (ərəb sözü) - nizam, qayda, səliqə; qayda-qanun, nizam-intizam

**İNTİZAM MƏSULİYYƏTİ** - əmək və ya xidməti intizam pozucularına qarşı tətbiq edilən təsir tədbirlərinin hüquqi formalarından biri. Bu məsuliyyət şəxsin işlədiyi müəssisənin və ya idarənin rəhbərliyi tərəfindən ona inzibati tənbeh tədbirinin tətbiq edilməsindən ibarətdir.

**İNZİBATİ MƏSULİYYƏT** - törətdikləri inzibati hüquqpozmalara görə vətəndaşların və vəzifəli şəxslərin məsuliyyəti, hüquqi məsuliyyət formalarından biri.

**İNZİBATİ YURİSDİKSİYA** - 1) dövlət hakimiyyəti, məhkəmə və prokurorluq orqanlarının səlahiyyətinə daxil olan işlərdən fərqli olaraq dövlət idarəetmə orqanlarının idarəsində olan işlər dairəsi; 2) inzibati xətalar haqqında işlərə baxılması və onlara görə qanunla müəyyən edilmiş qayda və formada qərar qəbul edilməsi üzrə dövlət idarəetmə orqanlarının və onların vəzifəli şəxslərinin qanunvericilik aktları ilə müəyyən edilmiş fəaliyyəti.

**İNZİBATİ AKT** - dövlət idarəetmə orqanının normativ aktdan fərqli olaraq, məqsədi konkret hüquq münasibətinin müəyyən edilməsi, dəyişdirilməsi və ya xitam verilməsi olan aktı. İnzibati aktın hüquqi qüvvəsi onun hansı inzibati orqandan çıxması ilə müəyyən edilir.

**İNZİBATİ HƏBS** - inzibati tənbehin ən ciddi (ağır) növüdür. Müstəsna hallarda inzibati xətaların ayrı-ayrı növlərinə görə 15 (on beş) günə qədər müddətə müəyyənləşdirilir və tətbiq edilir.

**İNZİBATİ PROSES** - dövlət idarəetməsi sahəsində konkret inzibati işlərin həll edilməsi üzrə dövlət orqanlarının fəaliyyəti.

**İCTİMAİ TƏHLÜKƏSİZLİK XİDMƏTİ** - ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi, cinayətkarlığa və digər xətalara qarşı mübarizəni həyata keçirən polis aparat və hissələrinin, habelə onla-rın şəxsi heyətinin məcmusu-dur.

# Jj

**JANDARMERİYA** *(fr. gandarmerie)* — hərbi təşkilata malik olan və ölkə daxilində, habelə orduda mühafizə funksiyasını yerinə yetirən polis (səhra jandameriyası). J. 1791-ci ildə Fransada yaradılmışdır. J. Avropanın digər ölkələrində, o cümlədən 1827-1917-ci illərdə çar Rusiyasında da fəaliyyət göstərmişdir. O, Rusiyada siyasi təminatlı polis qoşun növü kimi mövcud olmuşdur. J. hazırda Fransada, Avstriyada, Türkiyədə, Böyük Britaniyada və Argentinada mövcuddur.

# Kk

**KASSASİYA** - (son lat. cassatio - ləğvetmə, məhvetmə, lat. guasso-dağıdıram, uçuram) - 1) qanuni qüvvəyə minməmiş məhkəmə qətnamələrindən, hökmlərindən yuxarı məhkəməyə şikayət və protest vermə (bax Kassasiya şikayəti, Protest). 2) Qanuni qüvvəyə minməmiş məhkəmə qətnamələrinin və hökmlərinin qanuni və əsaslı (dəlilli) olmasının yuxarı məhkəmə tərəfindən işdə olan və əlavə təqdim edilən materiallar üzrə yoxlanılması. Kassasiya - (latınca cassation - ləğv etmə, məhv etmə) - 1) qanuni qüvvəyə minməmiş məhkəmə qərarlarından, hökmlərindən yuxarı instansiya məhkəməsinə şikayət və protest vermə; 2) işdə olan və əlavə təqdim edilən material üzrə qanuni qüvvəyə minməmiş məhkəmə qərarları və hökmlərinin qanuniliyinin və əsaslılığının yuxarı instansiya məhkəməsi tərəfindən yoxlanılması.

**KAĞIZ** (fars sözü) - məktub, namə; kağız.

**KAZUS** - (lat. casus), hüquqda - 1) şəxsin iradəsindən asılı olmayaraq baş verən və bu səbəbdən də həmin şəraitdə nəzərə alınması mümkün olmayan hadisə. 2) Təsadüfi hərəkət; qəsdən, yaxud ehtiyatsızlıqla edilmiş hərəkətdən fərqli olaraq, K. zahirən hüquqpozmaya uyğun olsa da, burada təqsir əlamətləri yoxdur və bu səbəbdən də hüquqi məsuliyyət üçün əsas deyil. Beləliklə, hüquqda şəxsin təqsiri təsadüf anlayışına qarşı qoyulur. K.-u qarşısıalınmaz qüvvə anlayışından da fərqləndirmək lazımdır.

**KƏŞFİYYAT** (ərəb sözü) - kəşf sözünün cəmi; düşmənin olduğu yeri, qüvvəsini, yerləşməsini öyrənmə; tapılıb üzə çıxarılan şeylər.

**KÜTLƏVİ TƏDBİR** - qeyri-müəyyən sayla vətəndaşların qatıldığı tədbir. Kütləvi tədbir vətəndaşların müxtəlif siyasi, sosial, vətənpərvərlik, mənəvi, iqtisadi, idman və digər maraqlarının həyata keçirilməsi vasitəsi, cəmiyyətin demokratik əsaslarının möhkəmləndirilməsi maraqlarına cavab verir.

**KÜTLƏVİ TƏDBİRLƏRİN NÖVLƏRİ -** məzmununa görə - ictimai-siyasi; mədəni-kütləvi; idman; dini; ənənəvi; miqyasına görə - beynəlxalq; ölkə (respublika); regional; lokal (yerli); yaranma üsuluna görə - mütəşəkkil (planlaşdırılmış); gözlənilməz (planlaşdırılmamış); nizamlanma qaydasına görə - icazəli (sanksiya-laşdırılmış); icazəsiz (sanksiyalaşdırılmamış).

**KÜTLƏVİ TƏDBİRLƏRLƏRİN ƏSAS XARAKTERİK ƏLAMƏTLƏRİ -** böyük əhali kütləsinin olması; hərəktlərin mütəşəkkilliyi; məqsədin məqsədlərin) olması; ictimai yerlərin olması; onların ardıcıl keçirilməsinin nizamlanması.

**KÜTLƏVİ İĞTİŞAŞLAR** - AR CM-in 220-ci maddəsində nəzərdə tutulan ictimai təhlükəsizlik əleyhinə cinayət. Bu cinayətin obyektiv cəhətini: 1) zorakılıqların, talanların, yanğınların törədilməsi, əmlakın məhv edilməsi, odlu silahın, partlayıcı maddələrin və ya qurğuların tətbiq edilməsi, yaxud hakimiyyət nümayəndəsinə silahlı müqavimət göstərilməsi ilə müşayiət olunan kütləvi iğtişaşları təşkil etmədə və ya belə iğtişaşlarda iştirak etmədə; 2) hakimiyyət nümayəndəsinin qanuni tələblərinə fəal şəkildə tabe olmamağa və kütləvi iğtişaşlara, habelə vətəndaşlara qarşı zorakılıq etməyə çağırışlarda ifadə olunur.

**KONTRABANDA** (ita. contrabando: contra —əleyhinə + bando —hökumət fərmanı) —**1)** gömrük qanunvericiliyinin pozulması ilə malların, valyutaların və digər qiymətli

sərvətlərin dövlət sərhədindən qanunsuz keçirilməsi; **2)** dövlət sərhədindən qanunsuz keçirilən malın özü (qaçaqmal); **3)** qadağan edilmiş gizli keçirilən qaçaqmal; **4)** Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206-cı maddəsində nəzərdə tutulmuş ictimai təhlükəli əmək (qaçaqmalçılıq).

**KOLLEGİYA**- (lat. colleqium - ümumilik, əməkdaşlıq) - səlahiyyətinə aid məsələləri birgə həll etmək hüququ olan şəxslər qrupu. Sosialist dövlətlərində K. hakimiyyət, idarəetmə və yaxud ədalət mühakiməsi funksiyalarını həyata keçirən kollektiv orqandır.

Kollegiallıq - hər biri müəyyən fəaliyyət sahəsinə şəxsən məsuliyyət daşıyan səlahiyyətli şəxslər (kolleqalar - həmkarlar) qrupu tərəfindən rəhbərlik edilən idarəetmə prinsipi.

**KONSTİTUSİYA** - (lat.contitutio - quruluş, təsisat) -dövlətin əsas qanunu; həmin ölkənin ictimai və iqtisadi quruluşunun əsasını, idarəetmə formasını və dövlət qurulununun formasını, şəxsiyyətin hüquqi vəziyyətini, mərkəzdə və yerlərdə hakimiyyət və idarəetmə orqanlarının təşkili qaydasını və səlahiyyətini, ədalət mühakiməsinin, seçki sisteminin təşkilini və əsas prinsiplərini təsbit edir.

**KRİMİNALİSTİKA** - (lat.criminalis - cinayətə aid olan) - məhkəmə sübutlarının toplanmasının, qeydə alınmasının, tədqiqinin və tətbiqinin xüsusi üsullar, metodlar və vasitələr sistemini işləyib hazırlayan elm. Cinayət mühakimə icraatında cinayətlərin qarşısının alınmasında, açılmasına və istintaqında, habelə cinayət işlərinə, bir sıra halda isə mülki işlərə məhkəmə baxışında bu üsullardan və vasitələrdən istifadə edilir.

**KRİMİNOLOGİYA** - (lat. crimen — cinayət + yun. logos — təlim) — cinayət haqqında təlim. ʺK.ʺ termini mətbuatda ilk dəfə XIX yüzilliyin sonunda ʺQızıl əsrʺ adlı cinayət ədəbiyyatı nəşrində işlədilmişdir. Bu terminin 1879-cu ildə Topinar tərəfindən işlədilməsi güman edilir. Digər bir mülahizəyə görə hesab olunur ki, ʺk.ʺ termini ilk dəfə 1885-ci ildə nəşr edilmiş monoqrafiyada işlədilmişdir.

Rafael Qarofalo 1888-ci ildə dərc etdirdiyi cinayət hüququ dərsliyini ʺKriminologiyaʺ adlandırmışdır. Belə bir dərslik Ç. Lombrozo tərəfindən də nəşr etdirilmişdir. Zaman keçdikdə k. müstəqil hüquq elmi kimi təşəkkül tapmışdır.

**KONKLYUDENT HƏRƏKƏTLƏR** (lat. concludo — yekunlaşdırıram, nəticə çıxarıram) — şəxsin şifahi və ya yazılı iradə ifadə formasında deyil, öz davranışı ilə hüquq münasibəti müəyyən etməkdə (məsələn, əqd bağlamaq) iradəsini ifadə etməkdə ifadə olunan hərəkətləri. İnkişaf etmiş iqtisadi dövriyyə malları və xidmətləri əldə etmək qaydasını asanlaşdıran avtomatik vasitələrdən istifadə etmək şəraitində k.h. mülki hüquq münasibətləri doğuran hüquqi fakt kimi çıxış edirlər. Ona görə də geniş yayılmışdır. K.h. yolu ilə bağlanan əqdlər bəzən onların bağlanması ilə eyni vaxtda da icra olunurlar. Buna pərakəndə satış ticarətində daha tez-tez təsadüf olunur. Qanunla birbaşa nəzərdə tutulmuş bəzi hallarda şəxsin susması hüquqi nəticələr doğurur. Buna həmin şəxsin hüquqlarının əmələ gəlməsinə və ya öz üzərində öhdəliklər götürməsinə yönələn iradə ifadəsi kimi baxılır.

**KONSPİRASİYA** (lat. conspiratio — yekdillik, razılıq, əlbirlik) — hər hansı fəaliyyətin sirlərinə əməl etmə, onları gizli saxlama. K. müvafiq dövlətlərin xarici kəşfiyyat xidmətinin prinsiplərindən biridir. Həmin prinsipə bir sıra digər hüquq-mühafizə orqanlarının, habelə əməliyyat-axtarış strukturlarının fəaliyyətində əməl edilir.

**KORRUPSİYA** — (lat. corruptio — rüşvətlə satın alma) — vəzifəli şəxslərin öz statusundan, təmsil etdiyi orqanın statusundan, vəzifə səlahiyyətlərindən və ya həmin status və səlahiyyətlərdən irəli gələn imkanlardan istifadə etməklə qanunsuz olaraq maddi və

sair nemətlər, imtiyazlar və güzəştlər əldə etməsi, habelə fiziki və hüquqi şəxslər tərəfindən qeyd edilən maddi və sair nemətlərin, imtiyazların və güzəştlərin qanunsuz olaraq vəzifəli şəxslərə təklif və ya vəd olunması və yaxud verilməsi yolu ilə həmin vəzifəli şəxsin ələ alınması. K.-nın ən tipik təzahürü dövlət məmurlarının və ictimai-siyasi xadimlərin satın alınması, nemətlərin və üstünlüklərin qanunsuz və ya qanuni verilməsi üçün rüşvətxorluq, proteksionizm — işçiləri qohumluq, yerliçik, şəxsi sədaqət və yaxınlıq əlamətlərinə görə irəli çəkmədən ibarətdir. K. bürokratiyanın artması, tayfabazlığın genişlənməsi şəraitdə daha böyük vüsət alır və hakimiyyət imtiyazlarına, səlahiyyətlərinə malik olanların xüsusi sosial qüvvəsinə çevrilir. ″Kölgəli iqtisadiyyatın″ fəaliyyəti, cəmiyyətin sosial təbəqələşməsi və ictimai-siyasi həyatda mənəviyyatın zəifləşməsi şəraitində k. bütün bunların tərkib elementi kimi çıxış edir.

# Qq

**QANUN** - (ərəb sözü) - qayda; üsul, nizam, nizamnamə; məcəllə dövlət hakimiyyətinin ali nümayəndəli orqanı və ya bilavasitə əhalinin öz iradəsini ifadə etməsi (məsələn, referendum qaydasında) ilə qəbul olunan və bir qayda olaraq, ən mühüm ictimai münasibətləri tənzimləyən hüquqi akt. Sözün geniş mənasında normativ-hüquqi aktların, dövlət tərəfindən müəyyən edilmiş ümumməcburi qaydaların hamısı.

**QANUNLARIN KOLLİZİSYASI** - (lat. collisio — toqquşma) — eyni bir məsələyə dair formal olaraq qüvvədə olan iki, yaxud daha artıq normativ-hüquqi aktın seçilməsi yolu həll edilir. Eyni hüquqyaratma orqanının verdiyi aktlar arasında uyğunsuzluq olarsa, vaxt etibarı ilə sonradan qəbul edilmiş akt tətbiq edilir. Q.k. ona görə əmələ gəlir ki, yeni akt qəbul edilərkən köhnə qanun heç də həmişə dərhal ləğv edilmir. Ümumi və xüsusi aktlar arasında uyğunsuzluq olarsa, xüsusi akta üstünlük verilir (əgər vaxt etibarı ilə sonradan qəbul edilmiş ümumi aktlar ləğv edilməmişdirsə). Müxtəlif orqanların qəbul etdikləri aktların normaları uyğun gəlmədikdə, yuxarı orqanın qəbul etdiyi norma tətbiq edilir.

**QANUNUN GERİYƏ QÜVVƏSİ** - qanunun qüvvəyə minməsindən əvvəl baş vermiş hadisələrə aid edilməsi. Bir qayda olaraq, qanunn geriyə qüvvəsi yoxdur, yəni o, dərc edildiyi vaxtdan əvvəl yaranmış münasibətlərə tətbiq edilmir. Bu qayda hüquq subyektləri arasında münasibətlərdə sabitlik, vətəndaşlarda öz hüquqi vəziyyətlərinin sabitliyinə, hüquq qaydasının möhkəmliyinə inam yaradır.

**QANUNUN TƏFSİRİ** - dövlət orqanlarının, təşk.ların, vəzifəli şəxslərin, ayrı-ayrı vətəndaşların hüquq normalarının məzmununun müəyyən edilməsi, qanunvericinin əmiş normalardakı iradəsini aşkara çıxarılması üzrə fəaliyyəti.

**QANQSTER** (ing. gangster —dəstə, banda) — cinayətkarların mütəşəkkil dəstəsinin üzvü, iştirakçısı; ABŞ-da və bir çox başqa ölkələrdə bandit adlanır. Q.-lər əsasən qətl və adam oğurluqları ilə məşğul olurlar.

**QƏRAR** - (ərəb sözü) - durma, əylənmə, dayanma, möhkəmlik, sarsılmazlıq; sərəncam, hökm; (hüquqda) -dövlət orqanının və yaxud vəzifəli şəxsin öz səlahiyyəti daxilində müəyyən məqsədlə qəbul etdiyi və hüquqi nəticələr əmələ gəğtirən aktı.

**QƏSD** (ərəb sözü) - niyyət; yaralama, öldürmə.

**QƏSDƏN** (ərəb sözü) - bilə-bilə, bilərəkdən.

**QİÇS (qazanılmış immunçatışmazlığı sindromu)** (AİDS — Acquied İmmune De-

ficiencu Syndrom) — insanın immunçatışmazlığı virusunun törətdiyi xəstəlik; belə patoloji vəziyyət nəticəsində immun sisteminin pozulması ilə orqanizmin müdafiə qüvvələrinin zəifləməsi prosesi gedir. İnsanın immunçatışmazlığı virusundan irəli gələn xəstəliyi Viç-infeksiya üçün daha səciyyəvidir. Təbabət aləminə 1982-ci ildən məlumdur və dünyanın bütün ölkələrində qeydə alınır. İnfeksiyanın mənbəyi virusun daşıyıcısıdır. Bu xəstəliyə yoluxma başlıca olaraq cinsi əlaqə (xüsusilə də homoseksual əlaqələrdə), qan köçürülməsi və infeksiyaların keçməsi zamanı baş verir. İnsan immunçatışmazlığı virusu ilə yoluxdurmaya görə AR CM-in 140-cı maddəsində cinayət məsuliyyəti nəzərdə tutulmuşdur.Qırmızı kitab - xüsusilə nadir heyvan və bitki aləmi obyektlərinin dövlət reyestri.

**QANUNİLİK** - 1) demokratik siyasi sistemin qanunun aliliyində, dövlət orqanları, vəzifəli şəxslər, ictimai təşkilatlar və ayrı-ayrı vətəndaşlar tərəfindən qanunların və digər hüquqi aktların dönmədən icra edilməsində, hüquqpozmaların qarşısının alınmasında, hüquqi məsuliyyətin dönməzliyində, insan hüquq və azadlıqlarına zəmanət verilməsində ifadə olunun ümumi prinsipi; 2) inzibati xətalara görə təsir tədbirləri tətbiq edərkən sosial qanunçuluğa əməl edilməsi.

**QƏZA** - daşınma prosesində nəqliyyat vasitəsinə və fraxta (gəmiyə) zərər və itki vurulmasına səbəb olan hadisə.

**QANUNPƏRƏST** (ərəb və fars sözü) - qanuna tabe olan, qaydaya riayət edən

**QATİL** (ərəb sözü) - qətl edən, öldürən

**QEYZ** (ərəb sözü) - acıq, hirs, qəzəb

**QƏFLƏTƏN** (ərəb sözü) - qəfildən, gözlənilmədən

**QƏRARDAD** (ərəb və fars sözü) - müqavilə, bağlaşma; hökm, qərar

**QƏTL** (ərəb sözü) - öldürmə

# Ll

**LAYİHƏ** (ərəb sözü) - təsəvvür; görüləcək işin qabaqcadan planlaşdırılması

**LƏĞV** (ərəb sözü) - aradan qaldırma, yox etmə, pozma

**LƏQƏB** (ərəb sözü) - ayama; ikinci ad

**LİSENZİYA** - (latınca, licentia - icazə, hüquq) - 1) dövlət və ya yerli özünüidarəetmənin xüsusi səlahiyyətli orqanları tərəfindən, qüvvədə olan qanunvericiliyə müvafiq olaraq lisenziyalaşmalı olan fəaliyyət növünün həyata keçirilməsinə verilən icazə (məsələn, xüsusi dedektiv və mühafizə fəaliyyəti, silah daşıma və s.); 2) xüsusi dedektiv və mühafizə fəaliyyətinin həyata keçirilməsinə qanunla müəyyən edilmiş qaydada daxili işlər orqanlarından alınan icazə.

# Mm

**MADDƏ** (ərəb sözü) - materiya; fəsil, bənd, cəmi: məvad.

**MADDİ** (ərəb sözü) - mənəvi olmayan; cismani.

**MAFİYA** (ita. mafia, maffia) - qeyri-iqtisadi məcburiyyət və zorakılıq, terror və qətl metodlarından istifadə edən gizli təşkilat. XVIII yüzilliyin sonunda Siciliya adalarının kənd yerlərində meydana gəlmiş m. XX yüzillikdə Gtaliya şəhərlərində də yayılmışdır. M. polis, məhkəmə və müəyyən siyasi dairələrlə (yuxarı elita ilə) barlı olur. 1950-60-cı illərdən Gtaliya hökuməti demokratik qüvvələrin təzyiqi altında m.-ya qarşı rəsmi mübarizəyə başlamışdır. Lakin bu mübarizə m.-nın fəaliyyətini dayandıra bilməmişdir. Sicili-

ya m.-si ABŞ-dakı qanqster təşkilatları (məsələn, "Koza nostra" - italyanca "bizim işimiz") ilə sıx barlıdır.

**MƏNƏVİ ZƏRƏR** (hüquqda) - qeyri-əmlak xarakterli ziyan; fiziki və ya hüquqi şəxsi şər.

**MƏHBƏS** (ərəb sözü) - dustaq evi, həbsxana.

**MƏHBUS** (ərəb sözü) - həbsə alınmış adam, dustaqı.

**MƏHKUM** (ərəb sözü) - hökm altında olan, cinayəti və cəzası müəyyən edilmiş, itaət altına alınmış.

**MƏXFİ** (ərəb sözü) - gizli, aşkar olmayan.

**MƏRUZƏ** (ərəb sözü) - qabaqcadan hazırlanmış nitq, çıxış.

**MƏSULİYYƏT** (ərəb sözü) - cavabdehlik.

**MƏZƏMMƏT** (ərəb sözü) - danlanma, pisləmə.

**MƏZUNİYYƏT** (ərəb sözü) - iznli, rüsxət, qulluqdan, işdən tapşırıqla bir yerə getmə.

**MÜAVİN** (ərəb sözü) - yardımçı, himayə, dayaq.

**MÜDDƏA** (ərəb sözü) - fikir, tezis; tələb, iddia.

**MÜHACİRƏT** (ərəb sözü) - başqa ölkəyə köçmə.

**MÜSTƏNTİQ** (ərəb sözü) - istintaq aparan; silistçi.

**MÜTƏXƏSİS** (ərəb sözü) - ixtisası olan, ixtisaslı; hazırlıqlı hazırlanmış.

**MÜTƏHHİM** (ərəb sözü) - ittiham olunan.

**MÜVƏKKİL** (ərəb sözü) - vəkil edilmiş, iş tapşırılmış.

**MODİFİKASİYA** (kriminalistikada) - yeni xassələrin meydana gəlməsi ilə xarakterizə olunan nəyinsə dəyişdirilməsi, yenidən qurulması. Kriminalistikada və məhkəmə ekspertizasında digər elmlərin metodları əsasında yeni metodların formalaşması prosesini, əlamətlərin yenidən yaranmasını və i.a. səciyyələndirir.

**MÖHTƏKİR** - bircada möhtəkirliklə məşğul olan şəxs, əksər bazarlarda əqdlərin qanuni iştirakçısı.

**MƏCƏLLƏ** - (ərəb sözü) - kitab, məcmuə, məhkəmə qanunları kitabı; hüququn hansısa sahəsinə aid olan normalardan ibarət olan sistemləşdirilmiş qanunvericilik aktı. Məsələn, AR Cinayət-Prosessual Məcəlləsi.

**MÜSADİRƏ** - inzibati tənbeh tədbiri kimi, bilavasitə inzibati xəta obyekti və ya onun törədilməsi aləti olan predmetin məcburi əvəzsiz qaydada dövlət mülkiyyətinə çevrilməsi.

**MANEVR** - gərgin vəziyyətin hökm sürdüyü yerlərdə polis güc və vasitələrinin mütəşəkkil və vaxtında toplanmasından ibarət olan hərəkət.

**MÜTƏMADİ** (mövsümü) xarakterli ictimai yerlər - günün müəyyən vaxtında əhaliyə xidmət göstərmək üçün təyin edilmiş yerlər (binalar) aiddir. Məsələn: xüsusi mədəniyyət müəssisələri; ictimai nəqliyyat vasitələri; ticarət, ictimai yeyinti, məişət xidməti müəssisələri; idman qurğuları və s. İctimai qaydanın mühafizəsi nöqteyi-nəzərindən bu yerlər yalnız öz təyinatları üzrə işlədikləri vaxt ictimai yer adlanır.

**MƏİŞƏT ZORAKILIĞI** - yaxın qohumluq mü-nasibətlərindən, birgə və ya əvvəllər birgə yaşa-maqlarından sui-istifadə etməklə, şəxslərin birinin digərinə qəsdən fiziki və ya mənəvi zə-rər vurmasıdır.

# Nn

**NORMATİV AKT** - səlahiyyətli dövlət orqanının qəbul etdiyi rəsmi yazılı sənəd; hüquq normaları müəyyən edir, dəyişdirir və yaxud ləğv edir. N. a.-lar bir-birinə tabelik münasibətindədir və onların hüquqi qüvvəsi də bundan əmələ gəlir. Yalnız qanunla müəyyən edilmiş orqanlar N.a. qəbul edə bilər.

**NAZİRLİK** - (latınca ministerium - xidmət, vəzifə) - hökumətin tərkibinə daxil olan ən mühüm icra hakimiyyəti orqanlarının növ adı.

**NAZİR** - 1.(fransızca ministre, latınca minister - xidmətçi) - hökumətin tərkibinə daxil olan ən mühüm dövlət idarəetməsi orqanının - nazirliyin rəhbərinin növ adı. Nazir həmişə hökumətin üzvü olur. 2. (ərəb sözü) - baxan, nəzər salan; nəzarət edən.

**NƏQLİYYAT** (ərəb sözü) - sərnişin, yük və s. daşıma işi; daşıma.

**NƏZƏRİYYƏ** (ərəb sözü) - elmin, incəsənətin və s. təcrübi olmayan ümumi əsaslar

**NÜMAYİŞ** (fars sözü) - göstərmə, göstəriş; kütləvi küçə hərəkatı

**NARKOBİZNES** - müvafiq ölkənin milli qanunvericilik və o cümlədən beynəlxalq hüquq normaları ilə qadaran edilmiş əməllərin məcmusundan ibarət olan cinayətlərin ən təhlükəli növlərindən biri. N. narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının istehsalından, saxlanmasından, daşınmasından və ya göndərilməsindən ibarətdir.

**NARKOMAFİYA** - narkobizneslə, narkosənaye ilə, o cümlədən narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsindən əldə edilmiş çirkli pulların leqallaşdırılması ilə məşrul olan cinayətkar təşkilat.

**NARKOMAN** - narkotik vasitələr və ya psixotrop maddələr qəbul edən, narkomanlıra aludə, yaxud narkotiklərdən fiziki və ya psixi asılılıqda olan şəxs. N. bütün ölkələrdə dövlət tərəfindən cinayət-hüquqi və tibbi vasitələrlə təqib olunurlar. Gnkişaf etmiş ölkələrdə narkotiklərlə barlı olan cinayətlərlə mübarizədə dövlətin qarşısında duran ən mühüm vəzifələrdən biri n.-nın dəqiq siyahısını aparmaqdan və onları məcburi müalicəyə cəlb etməkdən ibarətdir.

**NARKOMANLIQ** (ing. narke - bihuşluq + maniya) - narkotik vasitələri və ya psixotrop maddələri mütəmadi surətdə orqanizmə yeritməklə həyat fəaliyyətini müəyyən səviyyədə saxlayan, fiziki və psixi funksiyaların üzgünlüyünə səbəb olan xəstəlik. Bir narkotik vasitəyə aludəlik mononarkomanlıq, iki və ya daha çox narkotik vasitəyə aludəlik isə polinarkomanlıq törədir. N. sosial xəstəliklərin ən geniş yayılmış və təhlükəli, saralmaz formasıdır. Narkotiklərin orqanizmə təkrar yeridilməsindən psixi və intellektual pozrunluqlar baş verir. Əsəbilik, apatiya, depressiya müşahidə olunur, yaddaş və təfəkkür zəifləyir və həyata laqeydlik əmələ gəlir.

**NİZAMNAMƏ** - (ərəb və fars sözü) - təşkilatın quruluş və fəaliyyətini müəyyən edən qayda və prinsiplər. Dövlət, əmlak mülkiyyətçisi, yaxud ictimai təşkilatın müəyyən etdiyi aşağıdakıları tənzimləyən qaydalar toplusu: 1) müvafiq təşkilatların hüquqi vəziyyəti, onların digər təşkilatlarla və vətəndaşlarla qarşılıqlı münasibətləri (hüquqi şəxsin Nizamnaməsi); 2) müxtəlif təşkilatların və vətəndaşların fəaliyyəti, dövlət idarəetməsinin və ya təsərrüfat fəaliyyətinin müəyyən sferasında onların hüquq və vəzifələri (Dəmir yollarının Nizamnaməsi və i.); 3) Silahlı Qüvvələrin fəaliyyətinin müəyyən sahələrinin təşkili (hərbi Nizamnamə); 4) dövlət hakimiyyəti və yerli özünüidarəetmənin təşkili, inzibati-ərazi quruluşu və digər məsələlər.

# Pp

**PROTEST** (lat. protestor — açıq-aşkar etiraz edirəm) —etiraz. P. hüquqda qanunlara riayət edilməsinə nəzarətin həyata keçirilməsi formalarından biridir. Məhkəmə nəzarəti qaydasında protest qanuni qüvvəyə minmiş məhkəmə hökmlərinin, qərar və qətnamələrinin ləğv edilməsi, yaxud onların dəyişdirilməsi barədə qanunla müəyyən edilmiş səlahiyyətli şəxslərin müvafiq məhkəmə orqanlarına təqdim etdikləri etirazdır. Kassasiya protesti birinci instansiya məhkəmələrinin qanuni qüvvəyə minməmiş hökm və qətnamələrindən qanunla müəyyən edilmiş müddətdə prokurorun müvafiq yuxarı məhkəmə orqanına təqdim etdiyi etirazdır. Xüsusi protest birinci instansiya məhkəmələrinin cinayət işləri və mülki işlər üzrə ayrı-ayrı məsələlər haqqında qəbul etdiyi qərarlardan prokurorun yuxarı məhkəmə orqanına təqdim etdiyi yazılı etirazdır.

**PORNOQRAFİYA** - (yun. pornos- əxlaqsız və grapko - yazıram) pornoqrafik predmetləri hazırlama və satma - parnoqrafik yazıları, çap əsərlərini, təsvirləri və yaxud pornoqrafik xarakterdə olan sair predmetləri hazırlama, yayma və reklametmə; bədii və ya elmi dəyərə malik olmayan, müfəssəl və açıq şəkildə cinsi akt prosesini onun müxtəlif təzahürlərində təbii şəkildə əks etdirən və ya təsvir edən əsər, mətbəə nəşri, rəsmlər, kompyuter proqramları, filmlər, video və səs yazılışları, tele və radio verilişlər. P. faktı hər bir halda xüsusi bədii ekspert komissiyasının rəyi ilə müəyyən edilir.

**PRESEDENT** - (lat. praecedens, yiyəlik halında praecedentis - əvvəlki, qabaqcadan gələn) - müəyyən vəziyyətdə davranış; oxşar hallarda bu cür davranış nümunə sayılır. Məhkəmə P.-i - konkret iş üzrə qətnamədir. Həmin instansiya məhkəmələri və yaxud aşağı instansiya məhkəmələri oxşar işləri həll etdikdə məhkəmə P.-i vacibdir, qanunun təsviri zamanı isə o, məcburi olmayan nümunədir. Bəzi ölkələrdə məhkəmə P.-i hüquq mənbəyüidir. Məs., Qədim Romada oxşar işlərə baxıldıqda pretorların və digər magistratların qərarları məcburi sayılırdı.

**PROKURORLUQ** - (lat. procuro- qayğısına qalıram, təmin edirəm, qarşısını alıram).

**PATRUL** - həvalə olunmuş marşrutu gəzməklə (miniklə dövrə vurmaqla), onun ayrı-ayrı sahə ilə obyektlərini müayinə etməklə, xidməti vəzifələrini yerinə yetirən, bir və ya bir neçə polis əməkdaşlarından təşkil olunmuş səyyar naryaddır. Patrullar avtomobildə (PA), motosikletdə (PM), katerdə (PK), atda (PAT), piyada (PP) xidmət apara bilər. Xidmət aparmaq üçün patrula marşrut ayrılır.

Patrul növündən asılı olaraq marşrutun uzunluğu müxtəlif cür müəyyən edilir:a) piyada patrul üçün - 1- 1,5 km;b) motosikletlərdə patrul üçün - 3-5 km;c) avtomobillərdə patrul üçün - 6 -8 km. Xüsusm tapşırıqlar yerinə yetirilərkən marşrutun uzunluğu böyüdülə və ya azaldıla bilər.

**POST-PATRUL XİDMƏTİ POLİSİ** - polisin vətəndaşların şəxsi təhlükəsizliyinin, ictimai təhlükəsizliyin və cinayətkarlıqla mübarizənin təmin edilməsi məqsədilə küçələrdə, nəqliyyat obyektlərində və digər ictimai yerlərdə xüsusi paltar formasında xidmət edən xüsusi təyinatlı dəstələr vasitəsilə həyata keçirdiyi inzibati fəaliyyət növlərindən biri.

**POLİSİN POST-PATRUL XİDMƏTİNİN ƏSAS VƏZİFƏLƏRİ**: - ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi;cinayətlərin və digər hüquqpozmaların xəbərdar edilməsi və qarşısının alınması; mülkiyyətin qorunması; vətəndaşların, idarələrin,

müəssisələrin və təşkilatların hüquq və qanuni mənafelərinin cinayətkar qəsdlərdən və digər cəmiyyətə zidd hərəkətlərdən mühafizəsi; cinayətlərin açılmasında və cinayətkarların tutulmasında fəal iştirak etmək; yol hərəkəti təhlükəsizliyin təmin olunmasına nəzarət etmək.

**PATRUL QRUPU (PQ)** - vahid rəhbərlik altında birləşdirilmiş iki-üç və daha çox patrullardan təşkil olunmuş polis naryadıdır. Ona rəhbərlik daha hazırlıqlı əməkdaşa tapşırılır. Patrul qrupu üçün bir neçə marşrutu birləşdirən patrul sahəsi ayrılır. Qrupun özülünü radiorabitə vasitəsilə təchiz olunmuş avtomobildə xidmət aparan patrul təşkil edir.

**POST** (fr. poste, lat. positus —qoyulmuş) — mühafizə və müdafiə üçün gözətçiyə tapşırılmış obyekt, həmçinin onun öz funksiyasını yerinə yetirdiyi yer və ya ərazi sahəsi. Xüsusi tapşırığı yerinə yetirən hərbi qulluqçu və ya qrup (kiçik bölmə), həmçinin tapşırıq yerinə yetirilən yer (məntəqə) də p. adlanır.

**POSTAçI** - postda xidmət aparmaq üçün təyin olunan polis əməkdaşı

**POST-PATRUL XİDMƏTİ VAHİD DİSLOKASİYA ÜZRƏ TƏŞKİL EDİLMSİ** dedikdə - ictimai təhlükəsizliyin təmin edilmə-sində, cinayətkarlığa qarşı mübari-zədə, obyektlərin qorunmasında və yol hərəkəti təhlükəsizliyinin təmin olunmasında polisin qüvvə və vasi-tələrinin razılaşdırılmış kompleks şəklində istifadə olunması və ərazinin naryadlar vasitəsilə tam qapanması başa düşülür.

**POLİS SAHƏ İNSPEKTORU** - cinayət-karlığa qarşı mübarizə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin tə-min edilməsi sahəsində üzərinə düşən vəzifəni ona təhkim edilmiş inzibati sa-hədə yerinə yetirilən dövlət qulluqçu-sudur.

**PROTOKOL** *(fr. protocole —manuskriptin birinci vərəqəsi)* —**1)** hər hansı faktiki halların (iclasın, prosessual hərəkətlərin və ya istintaq hərəkətlərinin, məhkəmə iclasının) qeyd edildiyi rəsmi sənəd; **2)** beynəlxalq hüquqda — beynəlxalq müqaviləyə əlavə edilən və onu dəqiqləşdirən (hər şeydən əvvəl, əsas müqaviləyə edilən əlavədən ibarət olur) rəsmi sənəd. Az əhəmiyyətli məsələlər üzrə müqavilə və konvensiyalarda həll edilməli olan ayrı-ayrı beynəlxalq sazişlər də p. adlandırıla bilər. Lakin bəzi mühüm siyasi saziş də p. adlandırılır. Məsələn, müharibədə boğucu, zəhərləyici və ya digər bu kimi qazların və bakterioloji vasitələrin tətbiqinin qadağan edilməsi haqqında 1925-ci il Cenevrə protokolu buna nümunə ola bilər; **3)** cinayət işlərinin araşdırılması zamanı müstəntiq, təhqiqatçının və cinayət, mülki işlərin araşdırılması zamanı məhkəmənin həyata keçirdiyi prosessual hərəkətlərin gedişini və nəticələrini yazılı formada rəsmiləşdirən prosessual sənədlər.

**PAROL** (fr. parole - söz) - müəyyən edilmiş gizli söz. Ölkənin silahlı qüvvələrində p. hər bir qarovul üçün hər gün həmin ölkə şəhərlərinin birinin adı şəklində müəyyən edilir. P. həm qarovul xidməti, həm də kəşfiyyat və mühafizə zamanı tətbiq edilir.

**PASPORT** (fr. passport - ilkin mənası - limandan keçmək üçün icazə) - vətəndaşların şəxsiyyətini təsdiq edən sənəd. P. diplomatik, xidməti və adi (ümumvətəndaş) pasportdan ibarətdir. Diplomatik p. sahibləri xarici ölkədə imtiyazlardan istifadə edirlər. Xidməti p.-lar Azərbaycan Respublikası ticarət nümayəndəlikləri işçilərinə, diplomatik və konsul nümayəndəliklərinin xidməti və köməkçi işçilərinə, onların ailə üzvlərinə verilir.

**POLİS** [1] (yun. polis, lat. civitas) — şəhər-dövlət. Qədim Yunanıstan və Qədim Roma cəmiyyətinin sosial-iqtisadi və siyasi təşkilatının xüsusi forması olan p. şəhərdən və ona bitişik olan ərazidən ibarət olmuşdur. P.-in iqtisadi əsasını torpaq mülkiyyətinin antik forma-

sı təşkil edirdi. P.-lər siyasi quruluşuna görə müxtəlif idi. Spartada oliqarxiya, Afinada isə demokratik respublika forması daha geniş yayılmışdı. P. üçün tam hüquqlu vətəndaşların (kişilərin) xalq məclisi, şura, seçkili vəzifəli şəxslər və i.a. səciyyəvi olmuşdur. Quldarlıq formasiyasının inkişafı ilə p. də quldarlıq dövlətinin idarəçilik formasına çevrilmişdir. Yunanıstanda p.-in yüksəliş dövrü eramızdan əvvəl V yüzilliyə, tənəzzülü isə VI yüzilliyə təsadüf edir. Romada eramızdan əvvəl V-III yüzilliklər p.-in yüksəlişi, III-I yüzilliklər isə tənəzzül dövrü olmuşdur.

**POLİS** [2] (yun. politeia — dövləti idaəetmə, müdiriyyət) — **1)** dünya dövlətlərində xüsusi nəzarət orqanları sistemi, habelə mövcud ictimai quruluşu mühafizə edən daxili təyinatlı ordu. Əsas fəaliyyət istiqamətlərinə görə idarəetmə polisi, təhlükəsizlik polisi, cinayət (kriminal polis) polisi, inzibati polis, siyasi (gizli) polis, ədliyyə polisi, vergi polisi və hərbi polis fərqləndirilir; **2)** Rusiyada müstəqil orqan kimi 1718-ci ildə I Pyotr tərəfindən təsis edilmişdir; **3)** Azərbaycan Respublikasında — dövlətin icra hakimiyyətinə mənsub olan vahid mərkəzləşdirilmiş hüquq-mühafizə orqanı. "Polis haqqında" Azərbaycan Respublikasının 28 oktyabr 1999-cu il tarixli qanunu ilə fəaliyyət göstərir.

**POLİS HÜQUQU** — inqilabaqədərki Rusiyada qanunvericilik sahələrindən biri və müasir inzibati hüququn proobrazı olmuş elmi fənn. P.h. elminin predmetini daxili idarəetmə təşkil edir. Lakin p.h.-nun məzmunu və metodu 1917-ci il oktyabr dövlət çevrilişinədək dəqiq müəyyən edilməmişdir.

**POLİS NƏZARƏTİ** — XIX yüzilliyin başlanğıcında çar Rusiyasında tətbiq edilən inzibati tədbir. P.n. 1882-ci ildə qanuniləşdirilmişdir. Nəzarət altında olan şəxs yaşayış yerini dəyişmək, dövlət qulluğunda və ya ictimai qulluqda olmaq hüququna malik deyildi. Leqal və qeyri-leqal, müvəqqəti və ömürlük p.n. fərqləndirilirdi.

**POROSKOPİYA** — kriminalistik dastiloskopiyanın bölməsi; əl-barmaq izlərində məsamələrin təsviri üzrə şəxsiyyətin eyniləşdirilməsi metodikasını öyrənir. "P." terminini kriminalistikaya fransız kriminalisti Lokar gətirmişdir. O, eyniləşdirmə məqsədilə məsamənin təsvirindən istifadə etmək ideyasını irəli sürmüşdür. Lokar 1911-ci ildə bu sahədə müşahidələr aparmış və belə nəticəyə gəlmişdir ki, məsamələr nə sayına, nə də bir-birinə münasibətdə vəziyyətinə görə dəyişməzdir. Əl-barmaq izlərinin əmələgəlmə mexanizmindən asılı olmayaraq onların əksi dəyişmir. Eyni zamanda məsamələr formasına, ölçüsünə, vəziyyətinə və sayına görə son dərəcə müxtəlifdirlər. Buna əsaslanan Lokar poroskopik ekspertiza metodikasını işləyib hazırlamışdır.

**PRETENZİYA** *(lat. praetensio — tələb)* — kreditorun borcun qaytarılması, vurulmuş zərərin ödənilməsi, cərimənin verilməsi, göndərilmiş məhsulun, satılmış malın, görülmüş işin və göstərilmiş xidmətlərin qüsurlarının aradan qaldırılması haqqında borcluya qarşı verdiyi tələb.

**PREZUMPSİYA** *(lat. praesumptio)* — hələ əksinin sübut olunmadığı etibarlı hesab edilən ehtimal. Hüquqda bir neçə p. mövcuddur: a) müəlliflik prezumpsiyası; b) mülki hüquqda borclunun təqsir prezumpsiyası; c) cinayət hüququnda təqsirsizlik prezumpsiyası.

**PROSES** *(lat. processus — irəli çəkmə, irəliləyiş)* — məhkəmədə və ya inzibati orqanlarda işlərə baxılması qaydası; mühakimə icraatı; məhkəmə işi *(həmçinin bax: mülki proses; cinayət prosesi).*

**PSİXİATRİYA** *(psixi... və yun. iatreia — müalicə)* — kliniki təbabət sahəsi; psixi xəstəliklərin təzahürlərini, səbəbləri və inkişaf mexanizmlərini öyrənir, onların müalicə

edilmə metodlarını işləyib hazırlayır. Xəstəliyin müəyyən edilməsində məhkəmə psixiatriya ekspertizası aparılır.

**PASPORT-QEYDİYYAT SİSTEMİ** - AR ərazisində əhalinin hərəkətinin nizama salınması, vətəndaşların subyektiv hüquq və vəzifələrinin həyata keçirilməsi, ictimai qaydanın qorunması, dövlət və ictimai təhlükəsizliyin təmin edilməsi məqsədi ilə AR vətəndaşlarının, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin yaşayış yeri və olduğu yer üzrə qeydiyyata alınması və qeydiyyatdan çıxarılması, onların müvafiq şəxsiyyət və qeydiyyat vəsiqələri ilə təmin olunması qaydalarını müəyyən edən hüquq normalarının məcmusunu əks etdirir. - şəxsiyyəti təsdiq edən vahid sənədin — pasportun aparılması vasitəsilə vətəndaşların uçot qaydasını, onların yaşayış yerləri üzrə qeydiyyatını və müvəqqəti məskunlaşmasını, habelə ünvan-məlumat işlərini müəyyən edən qaydaların məcmusu.

**PERSONA NON QRATA** - (latınca persona non grata) - arzuedilməz şəxs. Persona non qrata elan etmə - hansısa diplomatın, onun ailə üzvlərinin və ya diplomatik nümayəndəliyin hansısa əməkdaşının gələcəkdə dövlətin ərazisində olmasının arzuedilməzliyinin həmin dövlət tərəfindən bu və ya digər formada bəyan edilməsi.

**POLİSİN İNZİBATİ FƏALİYYƏTİ** - tabeçilikdəki xidmətlərin, əməkdaşların işlərinin təşkili və inzibati-hüquqi üsulla ictimai qaydanın mühafizəsinin və ictimai təhlükəsizliyin təmin edilməsinin praktiki həyata keçirilməsi üzrə icra-sərəncamverici fəaliyyət.

**PREAMBULA** - (fransızca preambule - ön söz) - qanunverici və ya digər hüquqi aktın, eləcə də mətnində adətən prinsipial müddəalar, təşviqedici motivlər, müvafiq aktın dərc edilmə məqsədi əks etdirilən bəyannamənin və ya beynəlxalq müqavilənin giriş və ya başlanğıc hissəsi.

**PRİTON** - cinayət qanununun mənasına görə, bir qayda olaraq, müxtəlif şəxslərin əxlaqsız hərəkətlər etmək, ehtiraslı oyunlarda iştirak etmək, beyində dumanlanma yaradan spirtli içkilər içmək və ya preparatlar qəbul etmək üçün müntəzəm (sistematik) şəkildə toplandığı yer.

**PİYADA** (fars sözü) - ayaqla getmə, ayaqla gedən; şahmatda ən zəif fiqur.

# Rr

**REKVİZİTLƏR** - (lat. Requisitum - tələb olunan, zəruri); sənədin etibarlı hesab edilməsi üçün orada mütləq göstərilməli olan məlumatlar; bir qayda olaraq, bu məlumatlar aşağıdakılardır: sənədin adı və onun tərtib olunması vaxtı, sənədi tərtib etmiş idarənin (təşk.-ın) adı və ünvanı, edilən əməliyyatın məzmunu və iştirak edən tərəflər, əməliyyatın hansı əsasla aparılması, əməliyyatın həcmi və ölçü vahidi (naturada və dəyər ifadəsində), məsul şəxslərin imzaları.

**RESİDİVİST** - törətdiyi cinayətə görə məhkəmənin hökmu ilə məhkum edildikdən sonra yenidən bir, yaxud bir neçə cinayət törətmiş şəxs.

**RƏİS** (ərəb sözü) - başçı, müdir, rəhbər.

**RƏY** (ərəb sözü) - görmə, müşahidə; mülahizə, fikir; arzu.

**RƏYASƏT** (ərəb sözü) - rəhbərlik, liderlik, yüksək status.

**RÜŞVƏT** (ərəb sözü) - qeyri-qanuni bir iş üçün verilən pul.

**RÜŞVƏTXOR** (ərəb və fars sözü) - rüşvət alan, rüşvət yeyən.

**RÜTBƏ** (ərəb sözü) - dərəcə, vəzifə.

**REKET** - (ingiliscə racket) - təhdid və zorakılıq yolu ilə həyata keçirilən şantac, hə-

də-qorxu ilə tələb etmə. Azərbaycan və Rusiya qanunvericiliklərində bu termindən istifadə olunmur, lakin son illərdə hüquq publistikasında ona tez-tez rast gəlinir.

**RƏSMİ DİL** - qanunvericilikdə, rəsmi kargüzarlıqda, məhkəmə icraatında, təhsildə və i. istifadə edilən əsas dövlət dili.

# Ss

**SADİZM** (ing. sadism) - cinsi pozrunluq, yeni cinsi ehtirası başqa formada, mənəvi (təhqir etmə), yaxud fiziki əzab vermə ilə təmin etmə. "S" termini 1740-1814-cü illərdə yaşamış, cinsi ehtirasını təmin etmək normalarından ifrat dərəcədə kənara çıxmış fransız yazıçısı Markiz de Sadın adı ilə adlandırılır. Markiz de Sad öz romanlarında əsasən zorlama və qəddarlıqla barlı olan cinsi cinayətləri təsvir etmişdir. S. qəddarlıq, qeyri-normal cinsi əlaqə və özgəsinin əzablarından həzz almaq mənasında işlədilir.

**SANKSİYA** (lat. sanctio-pozulmaz qərar, ciddi qərar, tək halda sanetion - qoruyucu qərar) - 1) dövlətin hüququ pozana qarşı tətbiq etdiyi qoruyucu tədbir. Dövlət s.-nı həyata keçirməklə cəmiyyət üzvlərinə hüquq qaydasına riayət olunması zəruriliyini aşılayır. Hüquq qaydasının mühafizəsini və bununla da ictimai münasibətlərin normal inkişafını təmin edir. Aşarıdakı s.-lar mövcuddur: a) yalnız məhkəmənin tətbiq etdiyi cinayət qanunu sanksiyası (məsələn, azadlıqdan məhrumetmə, islah işləri); b) polisin, dövlət müfəttişlərinin tətbiq etdikləri inzibati sanksiya (məsələn, cərimə); c) müdiriyyətin və vəzifəli şəxslərin xidməti tabelikdə olanlar barəsində tətbiq etdikləri intizam sanksiyaları (məsələn, xəbərdarlıq, töhmət və s.); ç) məhkəmənin tətbiq etdiyi əmlak sanksiyası; 2) hüquq normasının tərkib hissəsi. Hüquq normasının s.hissəsində həmin normanı pozana qarşı dövlətin təsir tədbiri nəzərdə tutulur; 3) beynəlxalq hüquqda - öz beynəlxalq öhdəliklərini, yaxud beynəlxalq hüquq normalarını pozan dövlət barəsində tətbiq edilən təsir tədbiri .

**SAZİŞ** (fars sözü) - düzəlişmə, uyuşma, uzlaşma; barışıq, razılıq; müqavilə, bağlaşma

**SƏCİYYƏ** (ərəb sözü) - təbiət, xasiyyət, xarakter

**SƏLAHİYYƏT** (ərəb sözü) - bir işi görməyə hüququ və ixtiyarı olma

**SƏNƏD** (ərəb sözü) - bir şeyi sübut edəcək rəsmi arayış və s.; şəxsiyyəti müəyyənləşdirən rəsmi şəhadətnamə; söykənəcə, istinad ediləcək şey; zaman və məkan üzrə ötürmək üçün insanın yaratdığı üsulla təsbit edilən informasiyalı maddi obyekt.

**SƏRƏNCAM** (fars sözü) - qayda-qanun; hökm, ixtiyar; fərman, əmr

**SƏRHƏD** (ərəb və fars sözü) - hüdud, mərz

**SƏRXOŞ** (fars sözü) - şən, içmiş (adam)

**SƏRXOŞLUQ** - mütəmadi olaraq spirtli içkilərin qəbul edilməsidir.

**SİLAH** (ərəb sözü) - yaraq, əsləhə

**SİRR** (ərəb sözü) - gizli iş və ya şey; açılması çətin olan hadisə, iş.

**SERTİFİKAT**- (fr.certificat, son lat. certifico - təsdiq edirəm).

**STANDART**- (ink. standard - norma, nümunə, ölçü).

**STATUS** - (lat. status - vəziyyət) - vətəndaşın, yaxud hüquqi şəxsin hüquqi vəziyyəti. Bax. həmçinin şəxsiyyətin hüquqi statusu, hüquq subyekti.

**SERJANT** (fr. sergent - xidmətçi) - bir çox dövlətlərin silahlı qüvvələrində aşarı komanda (unter zabit) heyətində rütbə. Glk dəfə XV yüzillikdə Fransa ordusunda meydana gəlmişdir. Rus ordusunda XVII yüzillikdən, keçmiş Sovet ordusunda 1940-cı ildən tətbiq

olunmuşdur.

**SERTİFİKAT** (fr. certificat, son lat. sertifico - təsdiq edirəm) - 1) müəyyən bir faktı təsdiq edən sənəd; 2) xüsusi dövlət istiqraz vərəqələrinin adı; 3) sırorta sertifikatı - sırorta müqaviləsi şərtlərini əks etdirən və sırorta polisini əvəz edən sənəd; 4) xarici ticarətdə keyfiyyət sertifikatı - səlahiyyətli orqanların verdiyi və əmtəənin keyfiyyətini təsdiq edən sənəd.

**SUVERENLİK** - (fransızca souverainete - ali hakimiyyət) - hakimiyyətin aliliyi və müstəqilliyi.

**SAXLAMA** (yaxalama) - tutulanın cinayətə aidiyyətini aydınlaşdırmaq və onun mümkün nəzarət altına verilməsi (zərurət halında) haqqında məsələnin həlli məqsədilə cinayətin törədilməsində şübhələnilən şəxsə qarşı cinayət prosesində tətbiq edilən qısamüddətli məcburiyyət tədbiri.

# Şş

**ŞANTAJ** (fr. chantage) - ifşaedici və rüsvayedici məlumatlar yayma hədəsi ilə nəyisə tələb etməkdən ibarət olan və bu məqsədlə şantac edilən şəxsi hansısa hərəkətləri etməyə nail olmaqdan ibarət olan əməl. Azərbaycan Respublikasının cinayət hüququnda ş. cinayətin törədilməsi vasitələrindən biri kimi müəyyən edilsə də, müstəqil cinayət tərkibi kimi nəzərdə tutulmur.

**ŞƏXSƏN** (ərəb sözü) - bilavasitə özü, başqası olmadan

**ŞƏXSİYYƏT** (ərəb sözü) - bir şəxsin əsas xüsusiyyətlərinin məcmusu; sosail münasibətlərin subyekti, insanın sosial əhəmiyyətli keyfiyyətləri sistemi, sosial məhsul kimi fərd; ictimai münasibətlərin fəal subyekti olan insan. Ş. anlayışı vətəndaş, əcnəbi vətəndaş, vətəndaşlırı olmayan şəxslər kateqoriyalarını da əhatə edir.

**ŞƏRAİT** (ərəb sözü) - şərt sözünün cəmi; şərtlər; vəziyyət

**ŞƏRƏF** (ərəb sözü) - namus, vicdan, ehtiram, sayğı

**ŞİFAHİ** (ərəb sözü) - ağızdan olan, dilcavabı, söyləməklə

**ŞİKAYƏT** (ərəb sözü) - giley, giley-güzar, məlumat, ərizə

**ŞƏRAİT** (ərəb sözü) - şərt sözünün cəmi; şərtlər; vəziyyət

**ŞƏRƏF** (ərəb sözü) - namus, vicdan, ehtiram sayğı

**ŞİFAHİ** (ərəb sözü) - ağzından olan; dilcavabı; söyləməklə

**ŞİKAYƏT** (ərəb sözü) - giley, giley-güzar; məlumat, ərizə

**ŞÖBƏ** (ərəb sözü) - hissə, bölmə; budaq, şaxə

**ŞURA** (ərəb sözü) - müzakirə; sovet, şura

**ŞERİF** (ing. sheriff) - ABŞ-da, Böyük Britaniyada, Grlandiyada və bəzi ölkələrdə müəyyən inzibati funksiyanı və məhkəmə funksiyasını icra edən vəzifə sahibi.

# Tt

**TAUN** (ərəb sözü) - vəba (xəstəlik)

**TƏBLİĞAT** (ərəb sözü) - bir fikri, nəzəriyyəni müxtəlif yollarla kütlə arasında yayma

**TƏCAVÜZ** (ərəb sözü) - zorlama; aşma; özgəsinin torpağına

**TƏCRÜBƏ** (ərəb sözü) - yoxlama, sınaq

**TƏDBİR** (ərəb sözü) - çarə; təşəbbüs; qabaqcadan düşünülmüş üsul, yol, cəmi: təda-

bir

**TƏDQİQAT** (ərəb sözü) - tədqiq etmə, araşdırma; təki: tədqiq

**TƏFSİR** (ərəb sözü) - izah etmə, şərh etmə

**TƏFTİŞ** (ərəb sözü) - yoxlama, gözdən keçirmə, tədqiq etmə

**TƏHKİM** (ərəb sözü) - möhkəmlətmə, bərkitmə; bənd etmə

**TƏHQİQ** (ərəb sözü) - həqiqəti axtarma, meydana çıxarma; axtarış

**TƏHQİQAT** (ərəb sözü) - təhqiqlər

**TƏHQİR** (ərəb sözü) - alçaltma

**TƏHQİRAMİZ** (ərəb və fars sözü) - təhqiredici; alçaldıcı

**TƏHLİL** (ərəb sözü) - həll etmək, mürəkkəb bir cismi hissələrinə ayırma

**TƏHLÜKƏ** (ərəb sözü) - qorxu, xətər

**TƏHVİL** (ərəb sözü) - vermə; tapşırma; başqa şəklə salma

**TƏXLİYƏ** (ərəb sözü) - boşaltma, boşaldılma; evakuasiya

**TƏXRİBAT** (ərəb sözü) - dövlət tədbirlərinə gizli yolla mane olma; müharibə, təbii fəlakətlər və s. nəticəsində dağıntı

**TƏKZİB** (ərəb sözü) - yalansıtma, yalana çıxarma

**TƏQİB** (ərəb sözü) - izləmə, ardına düşmə

**TƏLİMAT** (ərəb sözü) - qayda-qanunun, qərarın və s. tətbiqinə dair göstəriş;

**TƏLİMAT** (ərəb sözü) - mükafatlandırma, könülünü alma

**TƏMİNAT** (ərəb sözü) - təmin etmə; zəmanət; təmin sözünün cəmi

**TƏNBEH** (ərəb sözü) - ağlını başına yığma; çəkindirmə; cəza, cəzalandırma; danlama

**TƏNQİD** (fars sözü) - yanlış və qüsurlu cəhətləri aşkara çıxarma; müəyyən bir əsəri qiymətləndirmə; əsərin nöqsanlarını demə

**TƏRXİS** (ərəb sözü) - icazə vermə, buraxma, müsaidə etmə; hərbi xidmətdən azad etmə

**TƏSDİQ** (ərəb sözü) - bir şeyin doğruluğunu iqrar etmə; təsdiqləmə

**TƏYİN** (ərəb sözü) - müəyyən etmə, müəyyənləşdirmə

**TÖHMƏT** (ərəb sözü) - danlama, danlaq, məzəmmət

**TÖVSİYƏ** (ərəb sözü) - məsləhət vermə, nəsihət etmə; tapşırma, sifariş vermə; vəsiyyət etmə; vəsatət; tövsiyə etmə

**TƏLİMAT** - 1) qanun qüvvəli akt; qanunvericilik aktının, nazirin yaxud digər dövlət orqanı rəhbərinin əmrini izah etmək və onun tətbiqi qaydasını müəyyənləşdirmək məqsədilə verilir. T.-ı, bir qayda olaraq, nazirliklər, dövlət komitələri, baş idarələr verir.

**TRASOLOGİYA** - (fr. trace -iz və yunö logos - söz, elm; hərfi mənası izlər haqqında elm) - kriminalistika texnikası sahəsm; izlərin yaranma mexanizmini öyrənir, onların aşkara çıxarılmasının, qeyd edilməsinin, götüurlməsinin və tədqiqinin üsullarını, metodlarını və elmi-texniki vasitələrini işləyib hazırlayır.

**TERRORÇULUQ** - (latınca terror - dəhşət) - AR CM-in 214-cü maddəsində nəzərdə tutulan ictimai təhlükəsizlik əleyhinə cinayətdir. Bu cinayət ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, yaxud dövlət hakimiyyəti orqanları və ya beynəlxalq təşkilatlar tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədilə insanların həlak olması, onların sağlamlığına zərər vurulması, əhəmiyyətli əmlak ziyanının vurulması və ya başqa ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış,

yanğın və ya digər hərəkətlər törətmə, habelə həmin məqsədlə bu cür hərəkətlərin törədiləcəyi ilə hədələmədə ifadə olunur.

**TOKSİKOMANİYA** - (yunanca toxikon - zəhər və monia - dəlilik, həyəcanlanma, ehtiras) - insanın dərman və digər şüur dumanlandırıcı vasitələrdən psixi və fiziki asılılığından ibarət olan xəstəlik, normativ aktlarla narkotiklər qismində tanınmayan maddələrdən (dərman bitkilərindən) sui-istifadə.

**TOKSİKOLOGİYA** -molekulyar səviyyədə qarşılıqlı təsir nəticəsində kimyəvi maddələrin canlı orqanizm üçün zərərli nəticələri barədə təlim, zəhərli maddələr, onların mənşəyi, kimyəvi tərkibi və xassələri, canlı orqanizmə təsiri, aşkar edilməsi üsulları, zəhərlənmələrlə mübarizə və onların profilaktikası haqqında elm. Məhkəmə təbabətinin və kriminalistika texnikasının hissəsi kimi t. zəhərli maddələrin aşkar edilməsi (bioloji materiallarda, meyitin hissələrində, mədədə, bədənin mayeli hissəsində) ilə məşğul olur.

**TRANZİT** *(lat. transitus —keçmə, keçid)* — sərnişinin və ya yükün bir məntəqədən aralıq məntəqələrini keçməklə digər məntəqəyə (məntəqələrə) daşınması. T. həm ölkə daxilində, həm də ayrı-ayrı ölkələr arasında mümkündür (sərnişinlərin və yüklərin bir ölkədən digər ölkənin ərazisindən keçməklə üçüncü ölkəyə daşınması).

**TƏQSİRSİZLİK PREZUMPSİYASI** - hüquqda qanunla müəyyən edilmiş qaydada təqsiri sübut olunmayan müttəhimin (təqsirləndirilən şəxsin) günahsız hesab edildiyi vəziyyət.

**TƏHLÜKSİZLİK** geniş mənada dövlətin, cəmiyyətin, şəxsiyyətin mühafizə edilməsi və müdafiəsini təmin edən iqti-sadi, siyasi, təşkilati, hüquqi və digər tədbirlərin məcmusudur.

**TƏBİİ FƏLAKƏTLƏRƏ AİD OLAN TƏBİƏT TƏZAHÜRLƏRİ VƏ PROSESLƏRİ**: zəlzələlər, daşqınlar (sel, su basma və s.); güclü küləklər (tayfunlar, siklonlar, hava burulğanları, qasırğalar, fırtınalar və s.); yanğınlar; sunamilər; yer sürüşmələri, uçqunlar (qar, dağ və s.); güclü leysan yağışları və ya quraqlıq; vulkan püskürmələri; meteoritlər və digər kosmik cisimlərin yerə düşməsi və s.

# Vv

**VANDALİZM** — mədəni və maddi sərvətlərin, habelə əmlakın və sair qurğuların məhv və ya xarab edilməsi. V. termini 455-ci ildə Roma şəhərini dağıdıb antik mədəniyyət abidələrini məhv edən qədim german tayfaları vandalların adından yaranmışdır. İkinci dünya müharibəsində alman faşistlərinin şəhərləri və sənət əsərlərini, erməni işğalçılarının Azərbaycanın Qarabağ bölgəsində mədəniyyət abidələrini yerlə-yeksan etməsi v.-in bariz nümunəsidir.

**VƏSATƏT** (ərəb sözü) - vasitə olma, vasitəçilik; havadarlıq mənasını verir. Vəsatət - 1) dövlət orqanının və yaxud ictimai təşk-ın müvafiq instansiyalara göndərdiyi rəsmi xahiş, yaxud təqdim.

2) Mühakimə icraatında poses iştirakçısının prosessual və yaxud məhkəmə hərəkətlərinin həyata keçirilməsi haqqında konkret iş üzrə qətnamələrin və yaxud digər qərarların qəbul edilməsi haqqında xahişlə cinayət işi üzrə icraatı aparan dövlət orqanına və yaxud vəzifəli şəxsə yazılı və ya şifahi müraciəti.

**VƏKİL** (ərəb sözü) - hüquqşünas; nümayəndə, vəzir, canişin; qanunverici orqana seçilmiş deputat.

**VƏSİQƏ** (ərəb sözü) - şəxsiyyəti təsdiq edən sənəd.
**VƏTƏN** (ərəb sözü) - birisinin doğulduğu yer, ana yurdu.
**VƏTƏNPƏRVƏR** (ərəb və fars sözü) - vətənini sevən.
**VİKTİMOLOGİYA** (lat. victima —qurban) — kriminologiyanın xüsusi bölməsi, cinayətin qurbanı haqqında təlim. Cinayətkarlığın qarşısını almaq məqsədi ilə cinayətin qurbanlarının şəxsiyyətini, cinayətkarla cinayətin qurbanı arasındakı münasibətləri öyrənir. V. bunun əsasında cinayətin qurbanı olmaq ehtimalını, qurbanlarla iş metodlarını və potensial qurbanların müdafiəsi üsullarını proqnozlaşdıran nəzəriyyə işləyib hazırlayır.

V. həm də kriminalistikaya aid olan bilik sahəsidir. Kriminalistik viktimologiyanın predmetini cinayətkar ilə onun əməlinin qurbanı arasında qanunauyğun şəkildə meydana çıxan, təqsirdə ifadə olunan, hüquq pozuntusunun mənşəyini və onun sonrakı inkişafını, eləcə də cinayətin və onun izlərinin gizlədilməsinə yönələn hərəkətləri şərtləndirən qarşılıqlı əlaqə və bağlılıq təşkil edir.

**VİZA**- (fr. visa, lat. visus -görülmüş, baxılmış sözündən)-1) müvafiq vəzifəli şəxsin hər hansı sənədin, aktın üzərində qeydi; həmin sənədin əsl olmasını təsdiq edir və yaxud onu qüvvəyə mindirir. 2) Müvafiq dövlətin ərazisinə gəlmək, həmin ərazidən getmək və yaxud oradan keçmək üçün verilən icazə (gəlmə V.-sı, getmə V-sı tranzit V.-sı).
**VÜQAR** (ərəb sözü) - əzəmət, böyüklük, ləyaqət, mərhəmət

# Yy

**YURİSDİKSİYA** - (latınca yurisdictio - məhkəmə icraatı, yus - hüquq və dicto - danışıram) - müvafiq dövlət orqanlarının hüquqi mübahisələri həll etmək və hüquqpozmalar haqqında işləri həll etmək üçün, yəni onların hüquqauyğunluğu nöqteyi-nəzərindən şəxsin və ya digər hüquq subyektinin hərəkətlərini qiymətləndirmək, hüquqpozanlara qarşı hüquqi sanksiyalar tətbiq etmək üçün qanunla (və ya digər normativ-hüquqi aktla) müəyyən edilən səlahiyyətləri məcmusudur.

# Zz

**ZABİT**-1) (ərəb sözü) - hərbi xidmətçi, komandir; zəbt edən, tutan, alan (məmur) 2) - (almanca offizier, orta əsr latıncasında offielarius - vəzifəli şəxs deməkdir) - silahlı qüvvələrdə, polis və candarmeriyada komandir (rəis) tərkibindən olan şəxs.
**ZƏRƏR** (ərəb sözü) - itki, ziyan
**ZİDDİYYƏT** (ərəb sözü) - əskiklik, zidd olma, antaqonizm
**ZOR** (fars sözü) - güc, qüvvət
**ZORƏN** (fars sözü) - zor gücünə, zorl, güclə
**ZÖHRƏVİ** (ərəb sözü) - əsasən tənasül yolu ilə yoluxan xəstəliklər; dəri xəstəliyi

# XII BÖLMƏ

## AZƏRBAYCAN RESPUBLİKASI HAQQINDA ÜMUMİ MƏLUMAT

***"Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" -***
***Heydər Əliyev***

**AZƏRBAYCAN RESPUBLİKASI** - Cənubi Qafqazın şərqində dövlət. Xəzər dənizinin cənub-qərb sahilində, 38°24 ilə 41°54 şimal enlikləri və 44°46 ilə 50°50 şərq uzunluqları arasındadır. Ərazisinin uzunluğu qərbdən şərqə 450 km, şimal-qərbdən cənub-şərqə 440 km-dir. Azərbaycan Respublikası şimalda Rusiya Federasiyası (390 km) şimal-qərbdə Gürcüstan (471 km), qərbdə və cənub-qərbdə Ermənistan Respublikası (1007 km) və Türkiyə (15 km), cənubda İran İslam Respublikası (765 km) ilə həmsərhəddir. Rusiya Federasiyası ilə sərhəd xətti Samur çayı, Sudur silsiləsi və Baş Qafqaz silsiləsinin yal hissəsindən keçir. Gürcüstanla sərhədi, əsasən, Qanıx, Qabırrı çayları və Kür ilə Qabırrı çaylarının suayrıcısı təşkil edir. Ermənistan Respublikasından, əsasən, Murquz, Şahdağ və Şərqi Göyçə silsilələri və Qarabağ yaylası ilə ayrılır. Türkiyə və İran İslam Respublikası ilə dövlət sərhədini çox yerdə Araz, Bolqar, Astara çayları və Talış dağları təşkil edir. Biləsuvardan Araz çayına qədər 50 km-lik məsafədəki sərhəd Muğan düzündən keçir. Azərbaycan Respublikasının quru sərhədlərinin uzunluğu 2647 km, su sərhədlərinin uzunluğu 816 km-dir.

Azərbaycan Respublikası ərazisinin təqribən yarısı dağlıqdır. Şimalda Böyük Qafqaz, cənubda Kiçik Qafqaz dağları və onların arasında Kür çökəkliyi, cənub-şərqdə Talış dağları uzanır. Ölkənin ərazisi faydalı qazıntılarla (neft, qaz, polimetal, dəmir filizi, alüminium, kobalt, mineral sular və s.) zəngindir. Dünyada mövcud olan 11 iqlim tipindən 8-i Azərbaycan Respublikasında müşahidə olunur. Respublika ərazisindən müxtəlif uzunluqda 8300-dən çox çay axır, 250-dən çox göl və su anbarları, zəngin torpaq-bitki örtüyü və heyvanlar aləmi var.

Azərbaycanda ilk respublika Azərbaycan Xalq Cümhuriyyəti adı ilə 1918 il mayın 28-də yaradılmış və 23 ay fəaliyyət göstərmişdir. 1920-ci il aprelin 28-də Arzərbaycanda sovet hakimiyyəti qurulmuş və 1991-ci ildə SSRİ dağılanadək davam etmişdir. 1991-ci il oktyabrın 18-də Milli Məclisdə Azərbaycanda dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul olunmuş və Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan edilmişdir.

Azərbaycan Respublikası BMT-nin (1992), Avropa Şurasının (2001), MDB-nin (1991) və ATƏT-in (1992) üzvüdür. Azərbaycan Avropa İttifaqı, NATO, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı və digər təşkilatlarla əməkdaşlıq edir.

Azərbaycan Respublikasının tərkibinə bir muxtar qurum - Naxçıvan Muxtar Respublikası, 65 rayon, 69 şəhər, 13 şəhər rayonu, 130 şəhər tipli qəsəbə və 4354 kənd yaşayış məntəqəsi daxildir.

Azərbaycan Respublikasının ərazisi 86,6 min $km^2$, əhalisi 9235.1 min nəfərdir (01.01.2012). Əhalinin 2009-cu il siyahıya alınmasına əsasən azərbaycanlılar 91,6%, ləzgilər 2,0%, ruslar 1,3%, ermənilər 1,3%, talışlar 1,3% təşkil edir. Qalanları başqa millətlərin nümayəndələridir.

Azərbaycan Respublikasının paytaxtı Bakı şəhəridir.

Azərbaycan Respublikasının milli pul vahidi manatdır.

Naxçıvan Muxtar Respublikasının sahəsi 5,5 min $km^2$, əhalisi 418,5 min (01.01.2012) nəfərdir. Paytaxtı Naxçıvan şəhəridir.

## AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT RƏMZLƏRİ

*Azərbaycan Respublikasının dövlət rəmzləri Azərbaycan Respublikasının Dövlət bayrağı, Azərbaycan Respublikasının Dövlət gerbi və Azərbaycan Respublikasının Dövlət himnidir. Azərbaycan Respublikası Dövlət bayrağının və Azərbaycan Respublikası Dövlət gerbinin təsviri, Azərbaycan Respublikası Dövlət himninin musiqisi və mətni Konstitusiya qanunu ilə müəyyən edilir.*

# Azərbaycan Respublikasının Dövlət bayrağı



Azərbaycanda üçrəngli dövlət bayrağı 1918-ci il noyabr ayının 9-da Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə qəbul edilmişdir. 1920-ci il aprelin 28-də Xalq Cümhuriyyəti süqut etdikdən və Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycanda bu bayraqdan imtina edilmişdir.

Bu bayraq ikinci dəfə 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı ilə bərpa edilmiş və Muxtar Respublikanın dövlət bayrağı kimi qəbul edilmişdir. Eyni zamanda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırmışdır.

1991-ci il fevral ayının 5-də Azərbaycan Respublikası Ali Soveti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatətinə baxmış və üçrəngli bayrağın Azərbaycanın dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar vermişdir.

Bayraq hər biri digərinə bərabər endə və üfüqi vəziyyətdə əks olunmuş üç rəngli zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq isə yaşıl rəngdədir. Mavi rəng türk (Azərbaycan) xalqına, qırmızı rəng azadlıq, demokratiya və insan hüquqları, yaşıl rəng isə İslam sivilizasiyasına məxsusluğun rəmzi mənalarını daşıyır. Qırmızı rəngli zolağın ortasında bayrağın hər iki üzün-

də ağ rəngli aypara və səkkiz guşəli ulduz təsvir olunmuşdur. Səkkiz guşəli ulduz türk xalqlarının səkkiz müxtəlif qolunun rəmzi əksidir. Bayrağın eni və uzunluğu 1:2 nisbətindədir.

## Azərbaycan Respublikasının Dövlət Gerbi



Azərbaycanın dövlət gerbi haqqında Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1920-ci il yanvarın 30-da müsabiqə elan etmiş və müsabiqədən keçəcək gerb nümunəsinin həmin ilin mayın 28-də qəbul ediləcəyi haqqında qərar çıxarmışdır. Lakin 1920-ci il aprel ayının 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqut etməsi nəticəsində gerb qəbul edilməmişdir.

1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Dövlət gerbi ilə bağlı məsələni müzakirə edərək, Azərbaycan SSR Ali Soveti qarşısında Azərbaycanın Dövlət gerbinin hazırlanması üçün yeni müsabiqənin elan olunması haqqında vəsatət qaldırmışdır.

Müsabiqə 1991-ci il fevralın 5-də Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə elan olunmuşdur. 1991-1992-ci illər ərzində müsabiqəyə Dövlət gerbinin onlarla layihəsi təqdim olunmuş, müzakirələr zamanı 1919-1920-ci illərdə hazırlanmış layihələrdən birinin qəbul edilməsi ilə bağlı təkliflər də səslənmişdir.

Azərbaycan Respublikasının Ali Soveti 1993-cü il yanvarın 19-da qəbul etdiyi Konstitusiya Qanunu ilə 1919-1920-ci illərdə hazırlanmış Dövlət gerbi layihələrindən birini müəyyən dəyişikliklərlə Azərbaycan Respublikasının Dövlət gerbi kimi təsdiq etmişdir.

Azərbaycan Respublikasının Dövlət gerbi Azərbaycan dövlətinin müstəqilliyi rəmzidir. Dövlət gerbi palıd budaqlarından və sünbüllərdən ibarət qövsün üzərində yerləşən şərq qalxanının təsvirindən ibarətdir. Qalxanın üstündə Azərbaycan Respublikasının Dövlət bayrağının rəngləri fonunda səkkizguşəli ulduz, ulduzun mərkəzində alov təsviri vardır.

Gerbdəki ulduz bayraqda olduğu kimi eyni rəmzi mənanın - türk xalqlarının səkkiz müxtəlif qolunun rəmzi əksidir. Kənarları qızılı rəngli zolaqla hüdudlanan səkkiz guşəli ulduz üç rəngli: yaşıl (aşağı), qırmızı (orta) və mavi (yuxarı) dairəvi zolaqların üzərində əks olunur. Bu rənglər bayraqdakı rənglərin daşıdığı eyni

rəmzi mənanın ifadəsidir. Ulduzun bütün guşələri arasındakı mavi dairəvi zolağın üzərində qızılı rəngdə səkkiz kiçik nöqtə əks olunmuşdur. Mərkəzdəki iri ulduzun ortasında alov şəkli təsvir olunmuşdur. Alov ölkənin digər rəmzi adının - Odlar Yurdunun ifadəsidir. Alov həmçinin azadlığın rəmzi ifadəsidir. Bütün bunları üzərində cəmləşdirən qızılı rəngli dairə sünbüllərin və palıd budaqlarının təsvirlərindən ibarət qövsün üzərində əks olunmuşdur.

Dövlət gerbinin qabarıq təsviri:

Azərbaycan Respublikası Prezidentinin iqamətgahına və xidməti kabinetinə;

Azərbaycan Respublikası parlamentinin binasına, iclas salonuna və parlament sədrinin xidməti kabinetinə;

Azərbaycan Respublikasının bütün məhkəmələrinin, hərbi tribunallarının binalarına, məhkəmə iclaslarının salonlarına, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi və Ali Məhkəməsi sədrlərinin xidməti kabinetlərinə;

Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş hallarda dövlət orqanlarının binalarına;

Azərbaycan Respublikasının diplomatik və ticarət nümayəndəliklərinin, konsulluq idarələrinin binalarına vurulur.

# Azərbaycan Respublikasının Dövlət Himni

1920-ci il yanvarın 30-da Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası Cümhuriyyətin milli himninin hazırlanması haqqında qərar qəbul etdi və bu məqsədlə Xalq Maarif Nazirliyi tərəfindən müsabiqə elan edildi. Lakin 1920-ci il aprelin 28-də Xalq Cümhuriyyətinin süqutu Azərbaycanın milli himnini qəbul etməyə imkan vermədi.

1992-ci il mayın 27-də parlament "Azərbaycan Respublikasının Dövlət himni haqqında" Qanun qəbul etdi. Qanuna əsasən, 1919-cu ildə böyük bəstəkar Üzeyir Hacıbəyov və şair Əhməd Cavad tərəfindən tərtib edilmiş "Azərbaycan marşı" Azərbaycanın Dövlət himni kimi təsdiq edildi.

**Musiqisi:** Üzeyir Hacıbəyovun
**Sözləri:** Əhməd Cavadındır

Azərbaycan, Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üç rəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu,
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər!
Hərə bir qəhrəman oldu!
Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!
Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə,
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən, şanlı Vətən!
Azərbaycan, Azərbaycan!

# İnzibati kənd rayonları (01.01.2006)

| adı | $(km^2)$ | (min nəfər) | tarix | sayı | sayı | sayı | Rayon mərkəzinin adı |
|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 3 • a |
| 1. Abşeron | 1361,4 | 93,3 | 1963 | 1 | 8 | 7 | Xırdalan ş. |
| 2. Ağcabədi | 1756,0 | 115,6 | 1930 | 1 | - | 46 | Ağcabədi ş. |
| 3. Ağdam | 1150,0 | 167,3 | 1930 | 1 | | 128 | Ağdam ş. |
| 4. Ağdəs | 1048,0 | 95,5 | 1930 | 1 | 2 | 76 | Ağdas ş. |
| 5. Ağstafa | 1503,7 | 77,8 | 1939 | 1 | 10 | 28 | Ağstafa ş. |
| 6. Ağsu | 1020,1 | 67,5 | 1943 | 1 | - | 78 | Ağsu ş. |
| 7. Astara | 616,4 | 92,3 | 1930 | 1 | 1 | 90 | Astara s |
| 8. Babək | 900,0 | 66,9 | 1978 | | 1 | 39 | Babək qəs. |
| 9. Balakən | 923,0 | 86,9 | 1930 | 1 | 1 | 58 | Bələkən ş. |
| 10. Beyləqan | 1131,1 | 82,7 | 1939 | 1 | 8 | 33 | Beyləqən ş. |
| 11. Bərdə | 957,0 | 138,1 | 1930 | 1 | - | 109 | Bərdə ş. |
| 12. Biləsuvar | 1397,0 | 82,7 | 1930 | 1 | - | 25 | Biləsuvar ş. |
| 13. Cəbrayıl | 1049,8 | 66,4 | 1930 | 1 | 2 | 91 | Cəbrayıl ş. |
| 14. Cəlilabad | 1441,4 | 184,5 | 1930 | | - | 117 | Cəliləbəd ş. |
| 15. Culfa | 995,0 | 38,7 | 1930 | 1 | | 24 | Culfa ş. |
| 16. Daşkəsən | 1046,9 | 31,9 | 1930 | 1 | 4 | 44 | Daşkəsən ş. |
| 17. Şabran | 1088,2 | 49,1 | 1930 | 1 | - | 68 | Şabran ş. |
| 18. Füzuli | 1390,0 | 147,1 | 1930 | 1 | 12 | 74 | Füzuli ş. |
| 19. Gədəbəy | 1290,0 | 90,8 | 1930 | 1 | - | 108 | Gədəbəy ş. |
| 20. Goranboy | 1791,0 | 92,1 | 1930 | | 6 | 81 | Goranboy ş. |
| 21. Göyçay | 739,0 | 106,1 | 1930 | 1 | - | 54 | Göyçay ş. |
| 22. Hacıqabul | 1640,0 | 62,6 | 1939 | 1 | 5 | 27 | Qazıməmməd ş. |
| 23. Xaçmaz | 1046,0 | 154,4 | 1930 | 2 | 12 | 136 | Xaçmaz ş. |
| 24. Göygöl | 1030,0 | 55,5 | 1930 | 1 | 5 | 41 | Göygöl ş. |
| 25. Xızı | 1853,0 | 14,1 | 1930 | - | 5 | 24 | qəs. |
| 26. Xocalı | 936,0 | 25,0 | 1991 | 1 | 2 | 50 | Xocalı ş. |
| 27. Xocavənd | 1458,0 | 40,8 | 1930 | 1 | 2 | 84 | Xocavənd ş. |
| 28. İmişli | 1821,0 | 110,3 | 1930 | 1 | 2 | 49 | İmişli ş. |
| 29. İsmayıllı | 2064,0 | 77,0 | 1931 | 1 | 2 | 106 | İsmayıllı ş. |
| 30. Kəlbəcər | 3054,0 | 73,6 | 1930 | 1 | 1 | 145 | Kəlbəcər ş. |
| 31. Kəngərli | 680,0 | 25,8 | 2004 | | 1 | 10 | Qıvraq qəş. |
| 32. Kürdəmir | 1631,5 | 99,5 | 1930 | 1 | 2 | 59 | Kürdəmir ş. |
| 33. Qax | 1493,8 | 53,8 | 1930 | 1 | - | 58 | Qax ş. |
| 34. Qazax | 699,0 | 85,4 | 1930 | 1 | - | 34 | Qazax ş. |
| 35. Qəbələ | 1548,6 | 90,2 | 1930 | 1 | 3 | 61 | Qəbələ ş. |
| 36. Qobustan | 1369,4 | 38,3 | 1990 | | 2 | 31 | Mərəzə qəs. |
| 37. Quba | 2574,0 | 146,1 | 1930 | 1 | 4 | 152 | Quba ş. |
| 38. Qubadlı | 800,0 | 35,7 | 1933 | 1 | - | 95 | Qubadlı ş. |
| 39. Qusar | 1542,0 | 85,2 | 1930 | 1 | 1 | 90 | Qusar ş. |
| 40. Laçın | 1835,0 | 68,9 | 1930 | 1 | 1 | 123 | Laçın ş. |
| 41. Lerik | 1083,6 | 71,0 | 1930 | | 1 | 161 | Lerik qəş. |
| 42. Lənkəran | 1539,4 | 199,7 | 1930 | | 7 | 84 | Lənkəran ş. |
| 43. Masallı | 721,0 | 187,8 | 1930 | 1 | 3 | 106 | Masallı ş. |
| 44. Neftçala | 1451,7 | 76,8 | 1940 | 1 | 4 | 47 | Neftçala ş. |
| 45. Oğuz | 1220,0 | 39,3 | 1930 | 1 | - | 33 | Oğuz ş. |
| 46. Ordubad | 972,0 | 42,9 | 1930 | 1 | 3 | 43 | Ordubad ş. |
| 47. Şaatlı | 1180,5 | 88,6 | 1943 | 1 | - | 43 | Şaatlı ş. |
| 48. Sabirabad | 1469,6 | 145,7 | 1930 | 1 | - | 74 | Şabirabad ş. |
| 49. Salyan | 1790,0 | 118,2 | 1930 | 1 | 8 | 42 | Şalyan ş. |
| 50. Samux | 1450,0 | 51,3 | 1930 | | 6 | 31 | Nəbiəcəli qəs. |
| 51. Sədərək | 151,0 | 13,1 | 1990 | | 1 | 3 | Heydərabad qəs. |
| 52. Şiyəzən | 703,4 | 36,2 | 1940 | 1 | 1 | 32 | Şiyəzən ş. |
| 53. Sahbuz | 917,0 | 21,7 | 1930 | | 2 | 23 | Şahbuz qəs. |
| 54. Şamaxı | 1610,0 | 87,4 | 1930 | 1 | 5 | 57 | Şamaxı ş. |
| 55. Şəki | 2432,8 | 165,9 | 1930 | 1 | 1 | 71 | Şəki ş. |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 56. Şəmkir | 1656,8 | 183,5 | 1930 | 1 | 7 | 56 | Şəmkir ş. |
| 57. Şərur | 810,0 | 97,1 | 1930 | 1 | - | 66 | Şərur ş. |
| 58. Şuşa | 29,0 | 26,7 | 1930 | 1 | 1 | 29 | Şusa ş. |
| 59. Tərtər | 957,0 | 96,1 | 1930 | | 1 | 77 | Tərtər ş. |
| 60. Tovuz | 1903,0 | 152,0 | 1930 | 1 | 1 | 102 | Tovuz ş. |
| 61. Ucar | 853,0 | 75,5 | 1939 | 1 | 2 | 29 | Ucar ş. |
| 62. Yardımlı | 667,2 | 55,4 | 1930 | - | 1 | 90 | Yardımlı qəs. |
| 63. Yevlax | 1540,0 | 114,1 | 1935 | 1 | 1 | 48 | Yevlax ş. |
| 64. Zaqatala | 1348,0 | 112,4 | 1930 | 1 | 2 | 60 | Zaqatala ş. |
| 65. Zəngilan | 707,0 | 37,4 | 1930 | 1 | 6 | 78 | Zəngilan ş. |
| 66. Zərdab | 855,6 | 50,0 | 1935 | 1 | 1 | 40 | Zərdab ş. |

## Şəhər ərazi vahidləri (01.01.2006)

| Şəhərlər | Sahəsi (km²) | Əhalisi (min nəfər) |
|---|---|---|
| Bakı (61 qəs. ilə birlikdə) | 2130 | 1873,6 |
| Naxçıvan (1 qəs. ilə birlikdə) | 130 | 70,2 |
| Gəncə (2 qəs. ilə birlikdə) | 110 | 306,4 |
| Sumqayıt (2 qəs. ilə birlikdə) | 80 | 294,4 |
| Mingəçevir | 130 | 95,3 |
| Şirvan (2 qəs. ilə birlikdə) | 30 | 73,7 |
| Xankəndi (1 qəs. ilə birlikdə) | 8 | 54,8 |
| Naftalan | 2 | 7,5 |

# Azərbaycan Respublikasının orden və medalları

Azərbaycan Respublikası müstəqilliyini elan etdikdən (1991) sonra Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında Azərbaycan Respublikasının 1992-ci il 10 noyabr tarixli Qanunu, həmin Qanuna dəyişikliklər və əlavələr barədə 1993-ci il dekabr tarixli Qanunu, həmçinin 2003-ci il 7 noyabr tarixli və 2005-ci il 22 aprel tarixli qanunları ilə aşağıdakı ordenlər təsis edilmişdir:

**1. "Heydər Əliyev" ordeni.** Azərbaycan Respublikasının ən yüksək təltifi olan "Heydər Əliyev" ordeni Azərbaycan Respublikasının vətəndaşlarına Azərbaycanın tərəqqisinə, əzəmətinin və şöhrətinin artmasına müstəsna töhfə verən xidmətlərinə görə; Vətənin müdafiəsində; Azərbaycanın dövlət mənafelərinin qorunmasında göstərilmiş mərdlik və şücaətə, həmçinin xarici vətəndaşlara Azərbaycan Respublikası qarşısında görkəmli xidmətlərinə görə verilir.

**2. "İstiqlal" ordeni.** Azərbaycan Respublikasının vətəndaşlarına Azərbaycan Respublikasında milli azadlıq hərəkatında müstəsna xidmətlərinə, Azərbaycan Respublikasının dövləti və xalqı qaşısında xüsusilə görkəmli xidmətlərinə, Azərbaycan Respublikasının milli dövlət quruculuğu işlərində xüsusi xidmətlərinə görə verilir.

**3. "Şah İsmayıl" ordeni.** Azərbaycan Respublikasının ali hərbi ordeni olan "Şah İsmayıl" ordeni ilə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin (ARSQ) ali rütbəli zabitləri, hərbi hissələrin və birləşmələrin komandirləri, ARSQ-nin təşkilində və möhkəmləndirilməsində, Azərbaycan Respublikasının ərazi bütövlüyünün və təhlükəsizliyinin təmin edilməsində, respublikada fövqəladə halların aradan qaldırılmasında xüsusi xidmətlərinə görə təltif edilirlər.

**4. "Azərbaycan Bayrağı" ordeni.** Azərbaycan Respublikasının vətəndaşlarına, əcnəbi vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasında milli azadlıq hərəkatında iştirakına və ictimai-siyasi fəaliyyətinə görə: hərbi elminin və hərbi texnikasının inkişafında, Azərbaycan Respublikasının müstəqilliyinin və ərazi bütövlüyünün qorunub saxlanılmasında, dövlət sərhədinin mühafizəsinin təmin edilməsində xüsusi xidmətlərinə görə verilir.

**5. "Şöhrət" ordeni.** Azərbaycan Respublikasının vətəndaşlarına, əcnəbi vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə iqtisadi, elmi-texniki, sosial-mədəni inkişafda, sülhün və xalqlar arasında dostluğun möhkəmləndirilməsində və əməkdaşlığın inkişafında; sənaye, nəqliyyat, rabitə, tikinti sahələrində, xalq təsərrüfatının digər sahələrində görkəmli əmək nəticələrinə, elm, təhsil və səhiyyə sahəsində xüsusi xidmətlərinə görə verilir.

**6. "Vətənə xidmətə görə" ordeni.** Azərbaycan Respublikasına sadiqliyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirməyə görə; dövlət qulluğunda səmərəli fəaliyyətə, yüksək peşəkarlığa və xüsusi nailiyyətlərə, milli dövlət quruculuğu işlərində xüsusi xidmətlərə görə verilir.

Azərbaycan Respublikasının yuxarıda göstərilənlərdən başqa "Qızıl ulduz", "Vətən uğrunda", "İgidliyə görə", "Tərəqqi", "Hərbi xidmətlərə görə", Sərhəddə fərqlənməyə görə", "Dövlət qulluğunda fərqlənməyə görə" medalları da təsis edilmişdir. Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinə əsasən dövlət təltifləri Azərbaycan Respublikası Prezidenti tərəfindən həyata keçirilir.

***

1920-40-cı illərdə milisin 500-ə qədər əməkdaşı cinayətkarlığa qarşı mübarizədə həlak olmuş, 1937-39-cu illərdə isə, onun şəxsi heyətindən 320 nəfərə qədəri repressiyaya uğramışdır.

1941-45-ci illərdə faşizm ilə mübarizədə Azərbaycan polisinin 800 nəfərə yaxın əməkdaşı rəşadətlə vuruşmuş, qəhrəmanlıq, igidlik nümunələri göstərərək yüksək orden və medallara layiq görülmüşlər.

Ermənistan-Azərbaycan-Dağlıq Qarabağ münaqişəsi başlandıqdan sonra Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə daxili işlər orqanlarının və Daxili Qoşunların şəxsi heyəti 932 şəhid vermiş, 681 əməkdaş isə əlil olmuşdur.

Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə göstərdikləri fədakarlıqlara, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində, cinayətkarlıqla mübarizədə, ictimai qaydanın və ictimai təhlükəsizliyin qorunmasında xüsusilə fərqləndiklərinə, xidməti vəzifələrini yerinə yetirərkən cəsarət göstərdiklərinə görə Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları ilə daxili işlər orqanlarının 66 əməkdaşına "Azərbaycan Respublikasının Milli Qəhrəmanı" fəxri adı verilmiş, 86 əməkdaş "Azərbaycan Bayrağı" ordeni, 247 əməkdaş isə müxtəlif orden və medallarla təltif edilmişdir.

## Ümummilli lider Heydər Əliyev
## və milli həmrəylik məfkurəsi

Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqının taleyində, bu günündə və gələcəyində göstərdiyi tarixi xidmətlər həyatımızın demək olar ki, bütün sahələrini əhatə etmişdir. Ümummilli liderin həyat və fəaliyyəti müasir Azərbaycanın dövlətçilik və hakimiyyət fəlsəfəsi, milli birlik və həmrəylik məfkurəsi ilə olduqca sıx bağlıdır. Birlik və həmrəylik məfkurəsi həmişə hər bir millət üçün taleyüklü məsələlərdən olmuşdur. Müxtəlif geosiyasi maraqların çərçivəsində olan Azərbaycan bu məfkurədən uzun müddət aralı düşmüş, əvvəllər ümumislam, sonralar isə ümumavropa dəyərləri sistemində yaşadığından hətta bəzən "mən kiməm" sualına konkret cavab verməkdə belə çətinlik çəkmişdir.

XX əsrin əvvəllərində xalqlar oyanıb milli kimliyini təsdiq etməyə çalışanda "tatar", "müsəlman" adları ilə çağırılan Azərbaycanlılar ağır sınaqlarla üz-üzə gəldilər. Birliyin və həmrəyliyin olmaması, əski yaddaşla birbaşa rabitənin qırılması öz fəsadlarını ötən əsrin əvvəllərində yaranan Azərbaycan Demokratik Cumhuriyyətinin taleyində də büruzə verdi. Cumhuriyyət yarandı, lakin çox yaşamadı. Cumhuriyyət dönəmi bitdikdən sonra isə sovet dönəmi başladı. Uzun fasilədən sonra ilk dəfə olaraq Azərbaycanın Şimal xanlıqlarında yaşayan azərbaycanlılar toplum olaraq vahid dövlətin tərkibinə qatıldılar və tamamilə başqa, milli olmayan bir ideologiyanın təsirinə məruz qaldılar.

Repressiyalara, kütləvi terrorlara məruz qalan Azərbaycanda XX əsrin 60-cı illərindən başlayaraq milli ideya gizli şəkildə olsa da dirçəlməyə başlayır. 1969-cu ildən başlayaraq isə ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişi bu sahədə yeni bir inkişafın başlanğıcını qoyur. Ulu öndər ilkin olaraq millətin özünümüdafiəsi üçün əsas faktorlardan biri, bəlkə də birincisi olan milli dilin işlək rəsmi dilə çevrilməsinə nail olur. Milli kadrların hazırlığı məsələsi respublikanın əsas prioritetlərindən biri kimi ön plana keçir. Milli ideya kimi Azərbaycançılıq məfkurəsi cəmiyyətdə özünə möhkəm yer tutur. Azərbaycan məmləkətinin orada yaşayan insanlara - bu ölkənin vətəndaşı olan hər bir azərbaycanlıya məxsus olması ideyası nəinki aşılanır, bu ideya reallığa çevrilir. Elmi, siyasi-fəlsəfi və eləcə də bədii ədəbiyyatlarda azərbaycançılıq ideyası birləşdirici faktor kimi geniş spektrdə ifadəsini tapmağa başlayır. Ümummilli lider Heydər Əliyevin Respublikaya rəhbərlik etdiyi birinci dövr ərzində artıq milli birlik ideyasının möhkəm əsasları yaradılır.

Əsrin axırlarında Sovetlər birliyi süquta uğradıqdan sonra Azərbaycan Respublikası da müstəqillik əldə edir. Müstəqilliyin ilkin illərində ölkə olduqca çətin problemlərlə üz-üzə gəlir. Hakimiyyətdə olanlar həmin dövrdə xalqa və dövlətə daha çox nəyin lazım olduğunu düzgün olaraq dərk etmədilər. Nəticədə milli ruhdan uzaq olan, səriştəsiz rəhbərlərin fəaliyyətsizliyi nəticəsində Azərbaycanın cənubunda, şimalında və qərbində qiyamçı separatçı qüvvələr baş qaldırdı. Azərbaycan dövləti parçalanmaq təhlükəsi ilə qarşılaşdı. Xalqımızın ümummilli lideri Heydər Əliyev xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gəldi. Həmin dövrdə ulu öndər birinci olaraq xalqa milli birlik ideyasını təklif etdi. Ümummilli lider Heydər Əliyev özünün əməli fəaliyyəti ilə sübut etdi ki, hər hansı millət və xalq yalnız milli birliyə nail olduqda və milli həmrəylik məfkurəsinin mahiyyətini düzgün dərk etdikdə güclü olur və öz məqsədlərinə asan çata bilir.

Azərbaycançılıq ideyası ətrafında bütün milləti səfərbər edən ulu öndər Azərbaycan dövlətini və millətini dünyanın ən qabaqcıl dövlətləri və millətləri sırasına çıxarmaq

üçün geniş miqyaslı fəaliyyətə başladı. Dünyada yaşayan azərbaycanlıları bir araya gətirmək, müstəqil Azərbaycan dövlətini harada yaşamasından asılı olmayaraq hər bir Azərbaycanlının vətəni olduğunu onlara başa salmaq və sevdirmək ulu öndərin başlıca prinsipinə çevrildi. Ümummilli liderin yorulmaz səyləri nəticəsində Azərbaycanlıların həmrəylik ideyası ictimai təşəbbüslərdən və arzulardan əməli işə çevrildi və dövlət siyasətinin mühüm istiqamətlərindən biri səviyyəsinə qaldırıldı. Azərbaycanlıların yığcam yaşadığı ölkələrdə onların təşkilatlanması, birlik və mütəşəkkilliyinin gücləndirilməsi üçün məqsədyönlü iş aparıldı. 2001-ci ilin noyabrında ulu öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Dünya azərbaycanlılarının I qurultayı keçirildi. Qurultayda ulu öndər özünün proqram xarakterli çıxışı ilə qarşıda duran vəzifələri müəyyənləşdirdi, onun qurultaydakı çıxışı azərbaycanlıların öz milli dövləti - Azərbaycan Respublikası ətrafında sıx birləşməsi prosesinə güclü təkan verdi. Bu qurultay xalqımızın milli birlik ideyasının inkişafında mühüm rol oynadı.

Qurultaydan sonra Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradıldı. Soydaşlarımızla bağlı dövlət siyasəti haqqında Qanun qəbul edildi. Müxtəlif ölkələrdə yaşayan soydaşlarımızın təşkilatlanması daha da gücləndi, milli-mənəvi və ümumbəşəri dəyərləri üzvi şəkildə birləşdirən, Azərbaycan xalqına və millətinə mənsubluq hissinə əsaslanan azərbaycançılıq ideyası bütün dünyada yaşayan azərbaycanlılar arasında geniş yayıldı. Ulu öndərin ən böyük xidmətlərindən biri də məhz, bu oldu ki, müstəqilliyin ilkin vaxtlarında vətəndaş qarşıdurmasının hökm sürdüyü cəmiyyətimiz üçün azərbaycançılıq ideyasının yeganə birləşdirici faktor olduğunu vaxtında və doğru olaraq müəyyənləşdirdi və bunun hər bir azərbaycanlı üçün əməli iş olduğunu sübut etdi. Bununla da Heydər Əliyevin milli birlik və həmrəylik məfkurəsi müstəqil Azərbaycan dövlətinin təməl prinsiplərindən birinə çevrildi. Zaman göstərdi ki, ümumimilli lider Heydər Əliyevin həmrəylik məfkurəsi müstəqil Azərbaycan dövlətinin gücü, müstəqilliyimizin əbədi və dönməzliyi deməkdir. Bu məfkurə harada yaşamasından asılı olmayaraq Azərbaycan dövlətinin dünyadakı bütün azərbaycanlılara məxsus olmasını və dövlətin hər bir azərbaycanlıya sahib çıxmasını sözdə yox, əməldə göstərdi.

Ümummilli lider Heydər Əliyevin həmrəylik və birlik məfkurəsi Azərbaycan Polisinin həyatından da təsirsiz ötmədi. Qısa vaxt ərzində yeni yaranan cəmiyyətlər üçün vacib olan polis - vətəndaş həmrəyliyi bərqərar oldu ki, bu da hüquqi dövlət quruculuğu istiqamətində əldə olunan ən böyük nailiyyətlərdən biri kimi dəyərləndirilməlidir. Maddi-texniki bazasının inkişafına, yüksək təhsil və nizam-intizam səviyyəsinə görə dünya standartlarına cavab verən Daxili İşlər Nazirliyinin Polis Akademiyasının fəaliyyəti isə savadlı hüquqşünas - polis kadrlarının hazırlanması baxımından cəmiyyətimizə verilən ən gözəl töhfə hesab oluna bilər.

Bütövlükdə müstəqilliyimizin 1993-2003-cü illəri əhatə edən dövründə Azərbaycanda vətəndaş cəmiyyətinin, ölkədə sabitliyin və əminamanlığın ideoloci əsasları tam yaradıldı.

2003-cü ildə dövlət başçısı seçilən cənab İlham Əliyev and içmə mərasimində siyasi dünyagörüşündən, etnik və dini mənsubiyyətindən asılı olmayaraq "Mən hər bir Azərbaycan vətəndaşı üçün yaxşı prezident olacağam" deməklə, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan azərbaycançılıq fəlsəfəsini yeni dəyərlərlə daha da zənginləşdirdi.

2007-ci ilin 2 iyulunda Azərbaycan Polisinin 90 illiyi və Polis Akademiyası məzunlarının buraxılış ili münasibəti ilə təşkil olunmuş mərasimdə iştirak edən Prezident İlham Əliyev Azərbaycan polisinin üzərinə düşən vəzifələrdən danışaraq vətəndaş cəmiyyəti quruculuğunda hüquq-mühafizə orqanlarının, o cümlədən polisin fəaliyyətini mühüm faktor kimi dəyərləndirdi. Bununla da Azərbaycan Prezidenti İlham Əliyev müasir Azərbaycan cəmiyyətində vətəndaş-polis münasibətlərinə yeni istiqamət verdi.

Göründüyü kimi milli birlik və həmrəylik ideyası olduqca keçməkeşli bir mərhələ keçmişdir. Bu ideyanın bitkin bir şəkildə formalaşması isə konkret olaraq ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

Milli həmrəylik və azərbaycançılıq ideyasının ölkədə vahid bir ideologiya və milli konsepsiya kimi formalaşması, möhkəmlənməsi istiqamətində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin atdığı məqsədyönlü addımlar təkcə kifayət edir ki, ulu öndər dünyada yaşayan bütün Azərbaycanlıların qəlbində əbədi olaraq böyük insan abidəsinə çevrilsin. Azərbaycan dövlətinin və xalqımızın xoşbəxt gələcəyi bizdən daim ulu öndərin həmrəylik ideyası ətrafında sıx birləşməyi tələb edir.

**Hikmət Eyvazov**
**Polis Akademiyası**

**"Xalq qəzeti"№286 (26051)**
**23 dekabr 2008-ci il, səh.3**

# POLİSİN FƏDAKARLIĞI

*İctimai-siyasi quruluşdan və şəraitdən asılı olmayaraq ölkəmizin bütün inkişaf mərhələlərində polis istər daxili cinayətkarlara, istərsə də əhalinin əmin-amanlığı üçün təhlükə törədən digər qüvvələrə qarşı əzmlə mübarizə aparmış, əsl fədakarlıq və peşəkarlıq nümunələri göstərmişdir.*

***Heydər Əliyev***

1920-40-cı illərdə milisin 500-ə qədər əməkdaşı cinayətkarlığa qarşı mübarizədə həlak olmuş, 1937-39-cu illərdə isə, onun şəxsi heyətindən 320 nəfərə qədəri repressiyaya uğramışdır.

1941-45-ci illərdə faşizm ilə mübarizədə Azərbaycan polisinin 800 nəfərə yaxın əməkdaşı rəşadətlə vuruşmuş, qəhrəmanlıq, igidlik nümunələri göstərərək yüksək orden və medallara layiq görülmüşlər.

Ermənistan-Azərbaycan-Dağlıq Qarabağ münaqişəsi başlandıqdan sonra Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə daxili işlər orqanlarının və Daxili Qoşunların şəxsi heyəti 932 şəhid vermiş, 681 əməkdaş isə əlil olmuşdur.

Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə göstərdikləri fədakarlıqlara, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində, cinayətkarlıqla mübarizədə, ictimai qaydanın və ictimai təhlükəsizliyin qorunmasında xüsusilə fərqləndiklərinə, xidməti vəzifələrini yerinə yetirərkən cəsarət göstərdiklərinə görə Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları ilə daxili işlər orqanlarının 66 əməkdaşına "Azərbaycan Respublikasının Milli Qəhrəmanı" fəxri adı verilmiş, 86 əməkdaş "Azərbaycan Bayrağı" ordeni, 247 əməkdaş isə müxtəlif orden və medallarla təltif edilmişdir.

# XIII BÖLMƏ
# MƏLUMAT-SORĞU

## AZƏRBAYCAN RESPUBLİKASI
## DAXİLİ İŞLƏR NAZİRLİYİ
## (http://mia.gov.az)

**NÖVBƏTÇİ HİSSƏ**
590-94-31
492-73-96
590-99-29

**102 ZƏNG MƏRKƏZİ**
Ünvan: Bakı ş. Azadlıq pr. 157
590-95-33

**TƏHLÜKƏSİZ ŞƏHƏR XİDMƏTİ**
Ünvan: Bakı ş. Azadlıq pr. 157
590-97-17

**BAŞ MÜTƏŞƏKKİL CİNAYƏTKARLIQLA MÜBARİZƏ İDARƏSİ**
Ünvan: Bakı ş. Dəmirçizadə 7
Növbətçi hissə 496-39-10

**BAŞ NARKOTİKLƏRLƏ MÜBARİZƏ İDARƏSİ**
Ünvan: Bakı ş. A.Abbaszadə17.
Növbətçi hissə 590-90-15

Cənub bölgəsində regional şöbə (Lənkəran şəhəri)
Növbətçi hissə 5-31-21

Qərb bölgəsində regional şöbə (Gəncə şəhəri)
Növbətçi hissə 57-81-69

**DİPLOMATİK NÜMAYƏNDƏLİKLƏRİN MÜHAFİZƏSİ ÜZRƏ ƏLAHİDDƏ POLİS TABORU**
Ünvan: Bakı ş.Naxçıvanski küç.7
Növbətçi hissə 474-29-21

**DAXİLİ QOŞUNLARIN BAŞ İDARƏSİ**

Ünvan: Bakı ş. Q.Musabəyov 3203 Məh.4.
Rabitə növbətçisi 569-42-42

**NƏQLİYYATDA BAŞ POLİS İDARƏSİ**
Ünvan: Bakı ş. Əmirov 24/1
Növbətçi hissə 493-62-64
**SU NƏQLİYYATINDA POLİS İDARƏSİ**
Ünvan: Bakı ş. Yasamal r-nu, Kənar Dairəvi küç.2
Növbətçi hissə 433-38-02

**HAVA NƏQLİYYATINDA POLİS İDARƏSİ**
Ünvan: Binə qəsəbəsi Növbətçi hissə 497-27-89

**DƏMİR YOLU NƏQLİYYATINDA POLİS İDARƏSİ**
Ünvan: Bakı ş. F.Əmirov 24/1
Növbətçi hissə 493-69-39

**BAŞ DÖVLƏT YOL POLİSİ İDARƏSİ**
(http://www.dyp.gov.az)
Ünvan: Bakı ş.Xırdalan qəsəbəsi, 1287, ev 4.
Növbətçi hissə 590-81-09

**BAŞ MÜHAFİZƏ İDARƏSİ**
(http://www.bmi.gov.az)
Ünvan: Bakı ş. Lisey döngəsi, 2.
Növbətçi hissə 494-24-05

**BAŞ PASPORT, QEYDİYYAT VƏ MİQRASİYA İDARƏSİ**
Ünvan: Bakı ş.Rəşid Behbudov, 58
Növbətçi hissə 590-92-09

**MİQRASİYA İDARƏSİ**
Ünvan: Bakı ş. Azadlıq pr.157
Növbətçi hissə 563-55-83

**AZƏRBAYCAN RESPUBLİKASINDA İNTERPOLUN MİLLİ MƏRKƏZİ BÜROSU**
Ünvan: Bakı ş. Firdovsi Məmmədov, 4.
Növbətçi hissə 498-09-23

**POLİS AKADEMİYASI**
(http://www.pa.edu.az)

Ünvan: Şüvəlan q. Almas İldırım, 3.
Növbətçi hissə 454-34-57

**A.HEYDƏROV adına TƏDRİS MƏRKƏZİ**
Ünvan: Bakı ş. Şüvəlan q. Sabir, 17.
Növbətçi hissə 454-12-25
**TİBB İDARƏSİ**
Ünvan: Bakı ş. Azadlıq pr. 157.
İndeks AZ 1106
Rəis 490-92-80

1 saylı poliklinika
Ünvan: Bakı ş.
Qeydiyyat otağı 490-92-84

2 saylı poliklinika
Ünvan: Bakı ş. Zərgərpalan, 35.
Qeydiyyat otağı 495-35-30

A.Heydərov adına hospital
Ünvan: Bakı ş. Ziya Bünyadov, 36.

Sanatoriya tipli "Xəzri" istirahət evi
Ünvan: Zaqulba q. Qələbə 40
Növbətçi post 453-63-22

**ÇEVİK POLİS ALAYI**
Ünvan: Bakı ş. Nobel qardaşları pr. 69
Növbətçi hissə: 562-58-90

**KARANTİN TƏDBİRLƏRİNİ TƏMİN EDƏN ƏLAHİDDƏ POLİS TABORU**
Ünvan: Bakı ş. Azadlıq pr.157.
Növbətçi hissə: 562-13-54

**İNSAN ALVERİNƏ QARŞI MÜBARİZƏ İDARƏSİ**
(http://iaqmi.gov.az)
Ünvan: Bakı ş. Azadlıq pr.157
Növbətçi hissə:590-92-88

**BAKI ŞƏHƏRİ BAŞ POLİS İDARƏSİ**
(http://www.bakupolice.gov.az)
Ünvan:Bakı ş.Yusif Səfərov, 27.
Növbətçi hissə: 590-91-15

**Bakı ş.BPİ-nin DÖVLƏT YOL POLİS İDARƏSİ**
Ünvan: Bakı ş. Badamdar qəsəbəsi, Kənar dairəvi yolun kəsişməsi
Növbətçi hissə 510-72-80

**BAKI METROPOLİTENİNİN MÜHAFİZƏSİ ÜZRƏ POLİS ŞÖBƏSİ**
Növbətçi hissə 590-95-85

**XƏZƏR RPİ**
Mərdəkan qəsəbəsi,Yesenin küçəsi, 132.
Növbətçi hissə 454-02-02

**1-ci PB**
Mərdəkan qəsəbəsi, R.Qasımov küçəsi, 26.
Növbətçi hissə 454-22-22

**2-ci PB**
Buzovna qəsəbəsi G.Məmmədov küçəsi, 16.
Növbətçi hissə 453-02-02

**3-cü PB**
Pirallahı qəsəbəsi S.Vurğun küçəsi, 16.
Növbətçi hissə 457-02-02

**BİNƏQƏDİ RPİ**
M.Rəsulzadə qəsəbəsi Azadlıq prospekti, 187.
Növbətçi hissə 436-02-02

**4-cü PB**
Azadlıq prospekti, 191.
Növbətçi hissə 561-02-02

**5-ci PB**
S.Axundov küçəsi, 6.
Növbətçi hissə 436-05-02

**6-cı PB**
Biləcəri qəsəbəsi, Y.Hüseynov küçəsi, 65.

Növbətçi hissə 406-74-02

**7-ci PB**
9-cu mikrorayon, M.Cəlal küçəsi, 99.
Növbətçi hissə 560-28-02

**40-cı PB**
Xırdalan şəhəri ev2 (Sulutəpə).
Növbətçi hissə 346-02-02

**SƏBAİL RPİ**
Neftçilər prospekti, 129.
Növbətçi hissə 493-02-02

**8-ci PB**
Bayıl qəsəbəsi, Ə.Yaqubov küçəsi, 2.
Növbətçi hissə 491-02-02

**9-cu PB**
Nizami küçəsi, 22.
Növbətçi hissə 492-02-02

**39-cu PB**
Nizami küçəsi, 44.
Növbətçi hissə 498-02-02

**QARADAĞ RPİ**
Lökbatan qəsəbəsi, S.Orucov küçəsi, 10.
Növbətçi hissə 445-02-02

**10-cu PB**
Lökbatan qəsəbəsi, Müsəvi küçəsi, 35.
Növbətçi hissə 445-22-22

**11-ci PB**
Qobustan qəsəbəsi, Salyan şosesi, 2.
Növbətçi hissə 544-50-02

**38-ci PB**
Sahil qəsəbəsi, Sahil küçəsi, 33.
Növbətçi hissə 446-10-02

**SABUNÇU RPİ**

Sabunçu qəsəbəsi, Ə.Məmmədəliyev küçəsi, 11.
Növbətçi hissə: 450-02-02

**12-ci PB**
Sabunçu qəsəbəsi, Ə.Məmmədəliyev küçəsi, 3.
Növbətçi hissə 450-23-08
**13-cü PB**
Bakıxanov qəsəbəsi, Məktəbli küçəsi, 2.
Növbətçi hissə 428-02-02

**14-cü PB**
Maştağa qəsəbəsi,Məmmədyarov küçəsi, 32.
Növbətçi hissə 455-11-44

**15-ci PB**
1-ci Zabrat qəsəbəsi, N.Nərimanov küçəsi, 1.
Növbətçi hissə 550-26-03

**NƏRİMANOV RPİ**
N.Məmmədov küçəsi, 9.
Növbətçi hissə 567-02-02

**16-cı PB**
F.Xoyski küçəsi, 83-A.
Növbətçi hissə 465-45-02

**17-ci PB**
Təbriz küçəsi 116
Növbətçi hissə 490-88-27

**18-ci PB**
M.Nağıyev küçəsi, 4.
Növbətçi hissə 490-88-26

**NƏSİMİ RPİ**
Azadlıq prospekti, 60.
Növbətçi hiss 440-64-75

**19-cu PB**
4-cü mikrorayon, 20 Yanvar küçəsi, 10.
Növbətçi hissə 431-02-02

**20-ci PB**

Mirqasımov küçəsi, 3.
Növbətçi hissə 440-67-51

**21-ci PB**
N.Vəzirov küçəsi, 52.
Növbətçi hissə 441-23-80
**22-ci PB**
Azadlıq prospekti, 28.
Növbətçi hissə 440-05-08

**NİZAMİ RPİ**
8-ci km qəsəbəsi,Ş.Mirzəyev küçəsi, 71.
Növbətçi hissə 421-02-02

**23-cü PB**
H.Əliyev prospekti, 86/18
Növbətçi hissə 490-88-25

**24-cü PB**
8-ci km qəsəbəsi, Naxçivanski küçəsi, 73.
Növbətçi hissə 422-12-29

**25-ci PB**
8-ci km qəsəbəsi. Əzimzadə küçəsi, 20.
Növbətçi hissə 422-43-02

**YASAMAL RPİ**
A.Salamzadə küçəsi, 1055-ci məhəllə.
Növbətçi hissə 434-02-02

**26-cı PB**
Ə.Ələkbərov küçəsi, 14-B.
Növbətçi hissə 537-11-15

**27-ci PB**
İnşaatçılar prospekti, 33.
Növbətçi hissə 510-02-02

**28-ci PB**
A.M.Şərifzadə küçəsi, 72-A.
Növbətçi hissə 533-07-03

**29-cu PB**

Y.Yasamal 1
Növbətçi hissə 432-30-28

**SURAXANI RPİ**
Əmircan qəsəbəsi, Balandin küçəsi, 43.
Növbətçi hissə 452-02-02
**30-cu PB**
Hövsan qəsəbəsi, Xanməmmədov küçəsi, 5.
Növbətçi hissə 457-57-02

**31-ci PB**
Əmircan qəsəbəsi, S.Bəhlulzadə küçəsi, 56.
Növbətçi hissə 452-77-02

**32-ci PB**
Qaraçuxur qəsəbəsi,Mehbalıyev küçəsi, 18.
Növbətçi 427-28-24

**33-cü PB**
Y.Günəşli qəsəbəsi, "Q" yaşayış sahəsi bina 25
Növbətçi 477-02-02

**XƏTAİ RPİ**
E.Əliyev küçəsi, 4.
Növbətçi hissə 422-02-02

**34-cü PB**
Əhmədli qəsəbəsi, M.Rüstəmov küçəsi, 6/4.
Növbətçi hissə 376-32-11

**35-ci PB**
Günəşli qəsəbəsi, N.Tusi küçəsi, 19.
Növbətçi hissə 479-37-02

**36-cı PB**
A.Ələsgərov küçəsi,6-A
Növbətçi hissə 479-38-02

**37-ci PB**
N.Rəfiyev küçəsi, 17.
Növbətçi hissə 490-51-54

---

# RAYON (ŞƏHƏR) POLİS İDARƏ VƏ ŞÖBƏLƏRİ

**ABŞERON RPŞ**
Heydər Əliyev pr. 6
Növbətçi hissə 342-02-02

**AĞCABƏDİ RPŞ**
Rəsulzadə küçəsi, 39.
Növbətçi hissə 5-50-17

**AĞSU RPŞ**
M.Rəsulzadə küçəsi, 25.
Növbətçi hissə 5-51-23

**AĞDAM RPŞ**
Ağdamın Xındırıstan kəndi
Növbətçi hissə 5-02-02

**AĞDAŞ RPŞ**
Müşfiq İsayev, 12.
Növbətçi hissə 5-51-81

**AĞSTAFA RPŞ**
H.Əliyev küçəsi, 71.
Növbətçi hissə 5-25-52

**ASTARA RPŞ**
Heydər Əliyev pr. 35.
Növbətçi hissə 5-40-99

**BALAKƏN RPŞ**
Z.Əliyeva küç 10
Növbətçi hissə 5-18-65

**BEYLƏQAN RPŞ**
M.Ə.Rəsulzadə, 98.
Növbətçi hissə 5-20-15

**BƏRDƏ RPŞ**
Babək küçəsi, 26.
Növbətçi hissə 6-67-02

**BİLƏSUVAR RPŞ**
M.F.Axundov, 246.
Növbətçi hissə 5-00-39

**CƏBRAYIL RPŞ (Biləsuvar rayonu)**
Nəsimi RPİ 22-ci PB-də (012)440-85-80
Növbətçi hissə (0118)4-36-02

**CƏLİLABAD RPŞ**
H.Əliyev, 154.
Növbətçi hissə 3-52-19

**DAŞKƏSƏN RPŞ**
H.Əliyev pr. 24
Növbətçi hissə 5-30-59

**ŞABRAN RPŞ**
H.Əliyev küçəsi, 4.
Növbətçi hissə 3-23-05

**ŞİRVAN ŞPŞ**
F.İsmayılov küçəsi, 1.
Növbətçi hissə 5-84-50

**FÜZULİ RPŞ (Horadiz şəhəri)**
Növbətçi hissə 5-00-53

**GƏDƏBƏY RPŞ**
Səməd Vurğun küçəsi, 11.
Növbətçi hissə 5-00-53

**GƏNCƏ ŞPİ**
H.Ə.Hüseynzadə, 5.
Növbətçi hissə 56-07-73

**KƏPƏZ RPŞ**
Şah İsmayıl Xətai prospekti, 85.
Növbətçi hissə 56-52-19

**NİZAMİ RPŞ**
Zərdabi, 39
Növbətçi hissə 57-02-02

**GORANBOY RPŞ**
Civəzadə, 5.
Növbətçi hissə 5-30-72

**GÖYÇAY RPŞ**
Natəvan küç, 11.
Növbətçi hissə: 6-14-91

**HACIQABUL RPŞ**
H.Əliyev, 7.
Növbətçi hissə 4-10-32

**XAÇMAZ RPŞ**
28 may küçəsi, 1.
Növbətçi hissə 5-53-56

**GÖYGÖL RPŞ**
H.Əliyev küçəsi, 22.
Növbətçi hissə 5-22-69

**XIZI RPŞ**
H.Əliyev küçəsi
Növbətçi hissə 5-02-16

**XOCALI RPŞ (Goranboy rayonu)**
Növbətçi hissə 74-5-05

**XOCAVƏND RPŞ (Beyləqan rayonu)**
Növbətçi hissə 5-10-33

**İMİŞLİ RPŞ**
H.Əliyev, 127.
Növbətçi hissə 5-60-13

**İSMAYILLI RPŞ**
H.Əliyev prospekti, 41.
Növbətçi hissə 5-11-89

**KƏLBƏCƏR RPŞ (Göygöl rayonu)**
H.Əliyev pr. 25
Növbətçi hissə 5-22-59

**KÜRDƏMİR RPŞ**
Qarabağ, 50.
Növbətçi hissə 6-64-10

**QAX RPŞ**
20 Yanvar küçəsi, 25.
Növbətçi hissə 5-23-52

**QAZAX RPŞ**
Azadlıq, 51.
Növbətçi hissə 5-14-97

**QƏBƏLƏ RPŞ**
İ.Qutqaşınlı küçəsi, 141.
Növbətçi hissə 5-18-28

**QOBUSTAN RPŞ**
H.Əliyev küçəsi
Növbətçi hissə 5-00-83

**QUBA RPŞ**
Əziz Əliyev küçəsi, 11.
Növbətçi hissə 5-35-11

**QUBADLI RPŞ (Sumqayıt şəhəri)**
Növbətçi hissə (01864)8-43-35

**QUSAR RPŞ**
H.Əliyev pr, 145.
Növbətçi hissə 5-28-03

**LAÇIN RPŞ (Ağcabədi rayonu)**
Növbətçi hissə 7-82-24

**LERİK RPŞ**
Heydər Heydərov küçəsi, 62.
Növbətçi hissə 4-60-69

**LƏNKƏRAN ŞPŞ**
Paşa Təhməzov küçəsi, 8.
Növbətçi hissə 5-38-07

**MASALLI RPŞ**
H.Əliyev pr. 99.
Növbətçi hissə 5-61-34

**MİNGƏÇEVİR ŞPŞ**
Səməd Vurğun küçəsi, 17/34.
Növbətçi hissə 5-26-04

**NAFTALAN ŞPŞ**
Nizami Gəncəvi küçəsi 15
Növbətçi hissə 2-31-15

**NEFTÇALA RPŞ**
Nizami küçəsi
Növbətçi hissə 2-31-49

**OĞUZ RPŞ**
Səməd Vurğun küçəsi, 5.
Növbətçi hissə 5-22-81

**SAATLI RPŞ**
H.Əliyev pr, 94
Növbətçi hissə 5-21-78

**SABİRABAD RPŞ**
H.Əliyev prospekti, 91.
Növbətçi hissə 5-52-03

**SAMUX RPŞ**
Nəbi Ağalı küçəsi
Növbətçi hissə 52-0-84

**SALYAN RPŞ**
Əli Zeynalov, 62.
Növbətçi hissə 5-51-83

**SİYƏZƏN RPŞ**
Daşqın Turabov küçəsi, 1.
Növbətçi hissə 4-02-21

**SUMQAYIT ŞPİ**
Axundov küçəsi, 2.
Növbətçi hissə (01864)8-49-86

**1-ci PB**
8-ci mikrorayon Baki küçəsi, ev 18/5
Növbətçi hissə: (01864) 2 03 65

**2-ci PB**
Tağıyev qəsəbəsi Xətai küçəsi
Növbətçi hissə 3 15 50

**3-cü PB**
18-ci məhəllə H.Əliyev 32
Növbətçi hissə: (01864) 8-42-03

**4-cü PB**
İnşaatçılar qəsəbəsi
Növbətçi hissə: (01864) 8-44-81

**ŞAMAXI RPŞ**
Nəriman Nərimanov, 52.
Növbətçi hissə 5-11-44

**ŞƏKİ ŞRPŞ**
Axundov, 1.
Növbətçi hissə 4-25-50

**ŞƏMKİR RPŞ**
Həzi Aslanov, 110.
Növbətçi hissə 2-32-02

**ŞUŞA RPŞ (Tərtər rayonu)**
Rəis: 6-30-73
Növbətçi hissə: 6-32-11

**TƏRTƏR RPŞ**
Nizami Gəncəvi küçəsi
Növbətçi hissə 6-32-11

**TOVUZ RPŞ**
M.Ə.Sabir küçəsi 1
Növbətçi hissə 5-00-94

**UCAR RPŞ**
H.Əliyev, 130
Növbətçi hissə 3-00-53

**YARDIMLI RPŞ**
Füzuli, 9.
Növbətçi hissə 6-11-05

**YEVLAX RPŞ**
Nizami Gəncəvi, 38.
Növbətçi hissə 6-45-02

**ZAQATALA RPŞ**
Bülbül 3
Növbətçi hissə 5-26-20

**ZƏNGİLAN RPŞ (Bakı şəhəri)**
Növbətçi hissə 567-73-60

**ZƏRDAB RPŞ**
Şahlar Şükürov küçəsi, 44.
Növbətçi hissə 5-60-48

**NAXÇIVAN MR DİN**
Nizami Gəncəvi, 32.
Növbətçi hissə 45-54-46

**NAXÇIVAN ŞPİ**
C.Məmmədquluzadə küçəsi, 5.
Növbətçi hissə 45-61-26

**BABƏK RPŞ**
H.Əliyev prospekti
Növbətçi hissə 41-32-36

**CULFA RPŞ**
H.Əliyev prospekti
Növbətçi hissə 46-06-40

**ORDUBAD RPŞ**
Səməd Vurğun küçəsi, 39.
Növbətçi hissə 47-00-11

**SƏDƏRƏK RPŞ**
Heydərabad qəsəbəsi
Növbətçi hissə 49-01-00

**ŞAHBUZ RPŞ**
H.Əliyev prospekti 71
Növbətçi hissə 43-02-02

**ŞƏRUR RPŞ**
28 may küçəsi, 5.
Növbətçi hissə 42-21-10

**KƏNGƏRLİ RPŞ**
Çıvraq küçəsi
Növbətçi hissə 48-07-04

## BAKI ŞƏHƏRİNDƏ FALİYYƏT GÖSTƏRƏN HÜQUQ MƏSLƏHƏTXANALARI

**1 saylı hüquq məsləhətxanası** — Ünvan: Bakı şəhəri, Hüsü Hacıyev küçəsi, ev 30; telefon: 494-19-95

**2 saylı hüquq məsləhətxanası** — Ünvan: Bakı şəhəri, Bəşir Səfəroğlu, ev 172; telefon: 494-00-22

**3 saylı hüquq məsləhətxanası** — Ünvan: Bakı şəhəri, İstiqlaliyyət küçəsi, 47; telefon: 492-40-43, 492-92-36

**4 saylı hüquq məsləhətxanası** — Ünvan: Bakı şəhəri, Ş.Qurbanov küçəsi, 13; telefon: 494-55-76

**5 saylı hüquq məsləhətxanası** — Ünvan: Bakı şəhəri, Azadlıq prospekti, 32; telefon: 440-45-45

**6 saylı hüquq məsləhətxanası** — Ünvan: Bakı ş, 8-ci km qəsəbəsi, Manafov küçəsi, 16; telefon: 421-30-24; 421-21-03

**7 saylı hüquq məsləhətxanası** — Ünvan: Bakı ş, Bakıxanov qəsəbəsi, Mehmandarov küçəsi, ev 1; telefon: 425-51-31

**8 saylı hüquq məsləhətxanası** — Ünvan: Bakı şəhəri, Mərdəkan qəsəbəsi, Telman küçəsi, ev 4; telefon: 454-45-70.

**9 saylı hüquq məsləhətxanası** — Ünvan: Bakı ş, Suraxanı rayonu, Əliyev küçəsi 3, Neft sahəsi; telefon: 458-14-13.

**10 saylı hüquq məsləhətxanası** — Ünvan: Bakı şəhəri, Lökbatan qəsəbəsi, Bünyadzadə 3; telefon: 445-41-16

**11 saylı hüquq məsləhətxanası** — Ünvan: Bakı ş, Rəsulzadə qəsəbəsi, Qəmbərov küçəsi, 22; telefon: 412-59-78

**12 saylı hüquq məsləhətxanası** — Ünvan: Bakı şəhəri, Azərbaycan prospekti küçəsi, ev 21; telefon: 493-94-50

**13 saylı hüquq məsləhətxanası** — Ünvan: Bakı şəhəri, Neapol küçəsi, ev 9a; telefon: 475-85-50

**14 saylı hüquq məsləhətxanası** — Ünvan: Bakı şəhəri, M.Qaşqay küçəsi, 24; telefon: 440-67-14, 440-51-71

**15 saylı hüquq məsləhətxanası** — Ünvan: Bakı şəhəri, Firdovsi Məmmədov küçəsi, 12; telefon: 496-07-96

**16 saylı hüquq məsləhətxanası** — Ünvan: Bakı şəhəri, A.Neymətulla küçəsi, 23; telefon: 567-48-49

**17 saylı hüquq məsləhətxanası** — Bakı ş, Yasamal r-nu, 523-cü məh, Z.Xəlilov küçəsi, ev 2; telefon: 510-53-41

**18. Aslan İsmayılov və partnyorları** — Ünvan: Bakı ş, Səbail r-nu, Nizami küç, ev 58; telefon: 498-98-83, 498-79-31

